www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 iyun 2019-cu il Bazar ertəsi № 119 (7289) Qiyməti 60 qəpik

**Xəbər**

## Samuxda faciə: tələbə qız intihar elədi

yazısı səh.14-də

**Gündəm**

### İşıq limitinin ləğvi məsələsi yenidən gündəmdə



İqtisadçılara görə, ölkədə elektrik enerjisinə tətbiq edilən limit əsaslı deyil və tamamilə götürülə bilər...

yazısı səh.5-də

### Neft ucuzlaşır - manat yayda "üşüyə" bilərmi?

yazısı səh.5-də

### Paytaxtın taksi sistemində xaos: əməkdaşımız müştərilərin başına gələnlərdən yazır

yazısı səh.10-da

### Əmlak bazarında son durum - lüks evlər ucuzlaşır

yazısı səh.14-də

### NATO üzvü və Avropanın mühüm dövlətindən Azərbaycana dəstək

yazısı səh.3-də

### AZAL ABŞ-a uçuşları dayandırır - səbəb

yazısı səh.2-də

### Bakı və Madriddəki final oyunlarının müqayisəsi: həbsə salınanlar, saxta bilet satanlar...

yazısı səh.4-də

### Rusiya-Türkiyə yaxınlaşması Qarabağ məsələsinin həllini niyə yaxınlaşdırmır?

yazısı səh.9-da

### Bakı hostelində bir gün - müxbirimizin qeydləri

yazısı səh.13-də

**Ramazan ayının 29-cu günü**

İftar 20.22. İmsak 03.22-dək (QMİ)

29-cu günün duası: "İlahi, bu gün məni Öz rəhmətinlə əhatə et! Belə bir gündə işlərimin uyğun olmağını və hər bir azğınlıqdan qorunmağı mənə nəsib et! Mənim qəlbimi şübhəli işlərdən, qaranlıq yollardan və töhmət gətirən əməllərdən pak et! Ey mömin bəndələrinə rəhm edən Allah!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# ERMƏNİSTAN YENİ İNQİLABA "HAMİLƏDİR" - PAŞİNYANIN BAŞI DƏRDDƏ

İşğalçı ölkədə ziddiyyətli proseslər başlayıb: həm Qərb, həm də Moskva əleyhinə etirazlar artır; **Rusiya patriarxı Kirildən ermənilərə ağır sözlər və hədə gəldi:** "Yaxşılığı həyasızcasına unudan nankor xalq, Rusiya olmasa..."




yazısı səh.8-də

# Ziya Məmmədovla Abbas Abbasovun fərqi - ilginc gəlişmə

Anar Məmmədov Bakıda "Arsenal"-"Çelsi" oyununa baxmaq üçün Bakıya sərbəst gələ bilir, Aydın Abbasov isə ölkəyə gələrkən saxlanılır - səbəb...

yazısı səh.6-da



Mətləb Mütəllimli

### "İstəsəydilər, 4 iyun qiyamının qarşısını ala bilərdilər"

yazısı səh.3-də



*Sülhəddin Əkbər:*

### "Biz ilk növbədə Rusiya ilə danışmalıyıq"

yazısı səh.7-də



### İsgəndər Həmidov Bakıya 1 ay sonra qayıda bilər

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019



# İsgəndər Həmidov Bakıya 1 ay sonra qayıda bilər

## Ağasif Şakiroğlu: "Açıq ürək əməliyyatı keçirmiş bir adamdan çox şeylər gözləyirik..."

**İkiyə parçalanan Azərbaycan Xalq Hərəkatında (AXH) qanadlardan birinin lideri olan sabiq nazir İsgəndər Həmidovla bağlı müəmmalar davam edir. Türkiyədə ürəyindən əməliyyat olunan sabiq nazir haqqında hələ ki, dolğun məlumat almaq mümkün olmur.**

Xüsusilə, lideri olduğu AXH-yə qarşı ötən ayın ortalarından etibarən başlayan təzyiq dalğası nəticəsində bir çox üzvlərin aidiyyəti orqanlara çağırılaraq ifadələrinin alınmasından sonra səhhəti pisləşən İ.Həmidov ətrafında bir çox suallar yaranıb.

Nəzərə çatdıraq ki, AXH-nin idarə heyətinin iki üzvü- İlyas Abdullayev və Yavər Mikayılovun saxlanıldığı deyilir. Eyni zamanda belə iddialar da var ki, onlar həbs edilməyiblər, sadəcə özləri gizlənirlər. Bu fikirləri səsləndirənlərin arqumentləri odur ki, həbs edilən istənilən şəxs haqqında yarım aydan çox müddətdə açıqlama verilməməsi mümkün deyil, əgər onlara cinayət işi açılıbsa, bu barədə rəsmi orqanlar açıqlama verməli idilər.

AXH-nin dönəm sədri, Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu İ.Həmidovla əməliyyatdan sonra onun şəxsən özü əlaqə saxlaya bilmədiklərini söylədi: "Yanında olan yaxınları ilə əlaqə saxlayırıq. Hazırda İsgəndər Həmidovun səhhəti normallaşmaq istiqamətində gedir. Həkim nəzarətindədir. Əməliyyat sonrası özü ilə danışmaq mümkün olmayıb. Bilirsiniz, açıq ürək əməliyyatı tibdə olduqca ağır əməliyyat hesab edilir. Açıq ürək əməliyyatı keçirmiş bir adamdan biz çox şeylər gözləyirik. Başa düşürəm, İsgəndər Həmidov hər zaman dinamik olub, gedən bütün məsələlərə operativ cavablar verib. Amma hazırda vəziyyət fərqlidir və həkim nəzarəti altındadır. Yaxınlarının səhhəti ilə bağlı əməliyyatdan sonra verdikləri informasiya əsasında məndə belə fikir yaranıb ki, 30-35 günə Bakıda olacaq. Bəzi "dostları" şübhəli yanaşmalarını qırağa qoymağa çağırıram. Burada nə şübhə var ki? Adamın səhhəti pisləşib və əməliyyata gedib. Ötən ilin noyabr ayında da Azərbaycanda xəstəxanaya düşmüşdü. Elə o vaxtdan da əməliyyat olunası idi. İsgəndər bəy hazırda Bakıda gedən proseslərdən xəbərsizdir. Bizlər isə İsgəndər bəydən foto istəyirik... Bu mənə Əbülfəz Elçibəyin Türkiyədə müayinə-müalicə vaxtı "dostlarının" onunla bağlı yaydığı şayiələri xatırlatdı. Görünən odur ki, zaman dəyişsə də bəzi insanlar dəyişməyib. İsgəndərin bəyin səhhəti düzələcək və ən qısa zamanda vətənə dönəcək".

A.Şakiroğlu hərəkata qarşı təzyiqlərin dayanmadığını da qeyd etdi: "Təzyiqlər dayanmayıb. 2 idarə heyətinin üzvünün taleyindən hələ də xəbər yoxdur. Biz onların saxlanılması ilə bağlı məhkəməyə müraciət etmişik, 30 mayda ilk iclasa qarşı tərəf gəlmədi, proses bu həftə davam edəcək".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

**Başsağlığı**

**Rauf Arifoğlu və "Yeni Müsavat" Media Qrupunun kollektivi Sülhəddin və Səlahəddin Əkbərə qardaşları Cəmaləddinin vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# AZAL ABŞ-a uçuşları dayandırır - səbəb

**Azərbaycan Hava Yolları Şirkəti (AZAL) ABŞ-a uçuşları dayandırır. Bu barədə modern.az AZAL-a istinadən xəbər yayıb.**



Qeyd olunur ki, ABŞ-ın aviasiya sənayesi bazarındakı problemlərlə əlaqədar olaraq, Milli aviadaşıyıcı bu il təyyarə parkını artıra bilməyib: "Bu səbəbdən AZAL aviaşirkətinin marşrut şəbəkəsində kommersiya cəhətdən ən rentabelli istiqamətlərin saxlanılması qərara alınıb. Bu istiqamətlər üzrə aviareyslər Heydər Əliyev Beynəlxalq Aeroportundan tranzit habı kimi istifadə olunması və ölkəmizə böyük turist axınının cəlb edilməsi üçün geniş imkanlar yaradacaq. Yuxarıda sadalanan halları nəzərə alaraq, 2019-cu il oktyabr ayından etibarən Nyu-Yorka aviareyslərin dayandırılmasını məqsədəuyğun hesab etdik".

Qeyd edək ki, 2016-cı ildən başlayaraq Azərbaycan və ABŞ arasında "Open Skies" (Açıq Səma) aviasiya sazişi qüvvədədir. "Bu saziş hər iki ölkənin aviaşirkətlərinə ölkələr arasında qeyri-məhdud sayda uçuşlar həyata keçirməyə imkan verir. Ümid edirik ki, Amerika aviaşirkətləri bu imkandan faydalanacaq və Bakıya birbaşa aviareyslər açacaqlar", - deyə AZAL-dan bildirilib.

## Hacı Muradın nəşi gizli yolla Azərbaycandan çıxarılıb?

**XIX əsrin ortalarında Qafqaz müharibəsində dağlıların liderlərindən biri olmuş Hacı Muradın nəşinin yenidən dəfn edilməsi ətrafında qeyri-müəyyənlik davam edir. Virtualaz.org-a məlum olduğuna görə, ictimai fəallar Azərbaycanın Qax rayonunun Tanqıt kəndində onun qəbrinin sinə daşının söküldüyünün şahidi olublar.**

Qeyd edək ki, daha öncə Rusiyanın bəzi kütləvi informasiya vasitələri bu gün, iyunun 2-də Hacı Muradın qalıqlarının onun doğma kəndində - Dağıstanın Xunzax kəndində yenidən dəfn ediləcəyini yazmışdılar. Bu zaman rusiyalı jurnalistlər dəfn üzrə təşkilat komitəsinin sədri Məhəmməd Əmirxanova istinad edirdilər. Lakin sonradan elə həmin nəşrlər Xunzax rayonunun başçısının müavini Şamil Əliyevə və administrasiyanın mətbuat katibi Kamil Hüseynova istinad edərək naibin qalıqlarının Dağıstanda yenidən dəfn ediləcəyi ilə bağlı məlumatı təkzib etmişdilər. "Mən bilmirəm, bir nəfəri də xəbərdar etmədən onlar dəfn mərasimini necə keçirmək istəyirlər", - Şamil Əliyev "Regnum" agentliyinə bildirmişdi.

Hazırda Qax Rayon İcra Hakimiyyəti Hacı Muradın qəbrinə müdaxilə haqqında məlumatı araşdırır. İş burasındadır ki, Qafqaz müharibəsinin qəhrəmanının qalıqlarının eksqumasiyasına heç kim rəsmi icazə verməyib.

## Atom Enerjisi üzrə Beynəlxalq Agentlik: "İran nüvə sazişinə riayət edir"

**BMT-nin nüvə nəzarət təşkilatı bildirib ki, İran 2015-ci ildə imzalanan sazişə əsasən məhdudiyyətlərə riayət edir. Bununla bərabər, ölkənin zənginləşdirilmiş uran və ağır su ehtiyatı artmaqdadır. Üzv ölkələrə təqdim edilmiş və Associated Press agentliyinin gördüyü məxfi rüblük hesabatda Atom Enerjisi üzrə Beynəlxalq Agentlik qeyd edir ki, İran əsas məhdudiyyətlər çərçivəsindən kənara çıxmayıb.**

Saziş Tehranın nüvə silahı hazırlamaqdan vaz keçməyin müqabilində iqtisadi stimul almasını nəzərdə tuturdu. Keçən il Birləşmiş Ştatların sazişdən birtərəfli çıxmasından və Vaşinqtonun İran iqtisadiyyatını hədəfə alan sanksiyalarının gücləndirilməsindən sonra vəziyyət mürəkkəbləşib. Mövcud vəziyyət sazişin digər üzləri olan Almaniya, Britaniya, Fransa, Rusiya və Çinin İranı sazişdə saxlamaq üçün lazımi iqtisadi stimul verməkdə çətinliklər yaradıb.

Bu ayın əvvəli İran elan etdi ki, 60 gün ərzində ölkənin ABŞ-ın sanksiyalarından qorumaq yolları tapılmasa, Tehran uranın zəngləşdirilməsini artıracaq. Bir həftə öncə isə İran uran zənginləşdirilməsi gücünü artırdığını bildirib. Buna baxmayaraq, Tehran sazişdə qeyd edilən məhdudiyyətlərin çərçivəsindən kənara çıxmayıb.

Hesabat həmin xəbərlərdən sonra çıxıb və Vyanada qərargahlaşan Atom Enerjisi üzrə Beynəlxalq Agentlik İranın sazişə riayət etdiyini və beynəlxalq müfəttişlərə ölkənin nüvə sahələrinə daxil olmağa şərait yaratdığını bildirir.

## IX sinif şagirdləri üçün buraxılış imtahanının ikinci mərhələsi keçirilib

**Dünən Dövlət İmtahan Mərkəzi (DİM) Bakı, Şirvan şəhərləri və Naxçıvan Muxtar Respublikasının ümumtəhsil müəssisələrinin IX sinif şagirdləri üçün buraxılış imtahanının ikinci mərhələsini keçirib.**

DİM-dən verilən məlumata görə, ümumilikdə 37670 şagirdin imtahan verəcəyi nəzərdə tutulurdu.

İmtahan saat 11:00-da başlayıb. IX sinif şagirdlərinin buraxılış imtahanlarının ikinci mərhələsinin keçirilməsi üçün qeyd olunan şəhər və rayonlarda 81 imtahan mərkəzi ayrılıb. İmtahanda 37670 (Bak şəhəri Yasamal rayonunda 2739, Binəqədi rayonunda 4413, Səbail rayonunda 1659, Xətai rayonunda 3580, Xəzər rayonunda 3044, Nərimanov rayonunda 2299, Suraxanı rayonunda 3110, Sabunçu rayonunda 4948, Nəsimi rayonunda 2269, Qaradağ rayonunda 2258, Nizami rayonunda 2496, Pirallahı rayonunda 388, Naxçıvan Muxtar Respublikasında 3461, Şirvan şəhərində 1006) nəfər 9-cu sinif şagirdinin iştirakı nəzərdə tutulurdu.



## Bu gün Bakıda 33° isti olacaq

**Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu, yağmursuz olacağı gözlənilir. Səhər bəzi yerlərdə zəif duman. Cənub küləyi gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 19-24° isti, gündüz 29-33° isti, Bakıda gecə 21-23° isti, gündüz 31-33° isti təşkil edəcək. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 40-50 % olacaq.**

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Səhər bəzi yerlərdə duman. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22° isti, gündüz 31-36° isti, dağlarda gecə 11-16° isti, gündüz 20-25° isti təşkil edəcək.

## Astarada "Niva" aşıb, 15 yaşlı qız ölüb

**Astarada baş verən ağır yol qəzası ölümlə nəticələnib. APA-nın cənub bürosunun verdiyi məlumata görə, rayonunun dağ kəndlərindən olan Təxtənəkəran kəndi ərazisində, 1970-ci il təvəllüdlü Əbülfət Nurməmməd oğlu Səfərovun idarə etdiyi "Niva" markalı avtomobil yoldan çıxaraq aşıb.**

Nəticədə sürücü ilə birgə 4 sərnişin - 1974-cü il təvəllüdlü Səringül Cəlal qızı Səfərova, 1980-ci il təvəllüdlü Nazim Həzrət oğlu Şahmuradov, 2004-cü il təvəllüdlü Aytac Əbülfət qızı Səfərova və 2004-cü il təvəllüdlü Aytəkin Əbülfət qızı Səfərova müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Onlar Lənkəran Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Vəziyyəti daha ağır qiymətləndirilən Aytəkin Səfərova orada vəfat edib.

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019

**İyun mərhum prezident Əbülfəz Elçibəyin rəhbərlik etdiyi hakimiyyətin süquta uğradığı ay kimi tarixə həkk olub. 1993-cü il iyunun 4-də Gəncədə Azərbaycan ordusunun keçmiş korpus komandiri Surət Hüseynov tərəfindən qanuni hakimiyyətə, mərhum prezident Əbülfəz Elçibəyə qarşı qiyam qaldırılıb. Bunun nəticəsində o zaman qiyamçılarla hökumət qüvvələri arasında silahlı toqquşma baş verib.**



# "İstəsəydilər, 4 iyun qiyamının qarşısını ala bilərdilər"

## Baş prokurorun keçmiş müavini 26 il öncəki olaylardan danışdı

Həmin vaxt S.Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissənin tərk-silah edilməsi ilə bağlı həyata keçirilən əməliyyat uğursuz olub, hər iki tərəfdən 35 nəfər həlak olub. Gəncəyə göndərilmiş hökumət rəsmiləri S.Hüseynovun dəstəsi tərəfindən girov götürülüb. Bu hadisə Azərbaycanda dərinləşməkdə olan hərbi-siyasi böhranı kritik həddə çatdırıb...



Mətləb Mütəllim

Proseslərin sonunda Ə.Elçibəy Bakını tərk edərək, doğulduğu Ordubad rayonunun Kələki kəndinə gedib. Bununla da AXC hökumətinin süqutu reallaşıb. Sonrakı proseslər isə bəllidir.

Hər ilin iyun ayı o zamankı hadisələrlə bağlı danışılır, yeni iddialar, faktlar üzə çıxır.

Baş prokurorun keçmiş birinci müavini, sabiq deputat, Sosial Ədalət Partiyasının sədri, 4 iyun qiyamı ilə bağlı yaradılmış deputat istintaq komissiyasının rəhbəri olmuş Mətləb Mütəllimli 26 ildən sonra "Yeni Müsavat"a diqqətçəkən açıqlamalar verdi. "O zaman istəsəydilər, həmin qiyamın qarşısını ala bilərdilər" deyən M.Müətəllimli qeyd etdi: "Biz o hadisələrlə bağlı yaradılan komissiyanın fəaliyyəti dövründə bir çox dövlət məmurlarından, o cümlədən, rəhmətlik Əbülfəz Elçibəydən izahat aldıq. Onlar bildirdilər ki, bu qarşıdurmadan qaçmaq olardı, sülh əldə etmək mümkün idi. Surət Hüseynov siyasətçi deyildi. Sadəcə olaraq, o, proseslərdə istifadə olundu. Milli hakimiyyətdə yüksək postlarda təmsil olunan şəxslərin ona qarşı münasibətləri onda aqressiya doğurmuşdu. Burada həmin dövrdə hakimiyyətə gəlmək istəyənlər və onların havadarları da mühüm rol oynadılar. Sonrakı proseslər onu göstərdi ki, Surət Hüseynov təsadüfi bir adam olub. Hər iki tərəfdən ona təsirlər, vədlər var idi. Siyasətçi olmadığı üçün tələyə düşdü. O zaman qonşu ölkələrimizdə elə qüvvələr var idi ki, Elçibəy hakimiyyətinin iqtidarda qalmasını istəmirdilər. Burada əsas rolu Rusiya oynayırdı. Qiyamla bağlı biz araşdırma apardıq və çox qısa zamanda orada olduq. Sonra təcili Bakıya gəldik. Komissiya İsa Qəmbər Milli Məclisin sədri olan vaxt yarandı. Həmin hadisələrin üzərindən uzun zaman keçib. Onu da qeyd edim ki, komissiyanın da fəaliyyətinə təsir göstərən qüvvələr var idi. Bizim komissiya üzvü olaraq Surət Hüseynov və onun ətrafındakı adamlarla görüşümüz oldu. Bizdən əvvəl də gələnlər olmuşdu. Bizə deyirdilər ki, arayışı yazıb bizə verib, sonra gedəcəksiniz. Bizə Surət Hüseynov və onun havadarları tərəfindən basqılar var idi. Onlara izah etdik ki, bu komissiyanı siz yaratmamısınız, sizlərin qarşısında hesabat verən deyilik. Onlara öz nümayəndələrini komissiyaya qoşmağı təklif etdik. O zaman baş verənlər təkcə Surət Hüseynovun işi deyildi. Bir növ ona məsləhətlər verirdilər və o, məsləhətləri, sadəcə, yerinə yetirirdi. Biz hesabat hazırlamışdıq. Həmin vaxt Surət Hüseynov üstümə qabardı ki, qərəzə yol verirsən, səni həbs edə bilərəm. Bu, Milli Məclis sədrinin otağında baş vermişdi. Nə baş verməsindən asılı olmayaraq, biz mövqeyimizi kəskin şəkildə sərgiləyirdik. Uzun zaman vaxt keçib, ola bilər ki, həmin qiyamı daha yaxşı işıqlandırmaq, araşdırmaq olardı. Komissiyanın işi ona görə çətin idi ki, hərə bir tərəfə çəkirdi. Partiya maraqlarından çıxış edənlər çox idi. Əsas məqsədim o idi ki, hesabatı obyektiv şəkildə hazırlayım. Buna da nail oldum. Biz hesabata o bəndi də əlavə etmişdik ki, nəinki 4 iyun qiyamı, ondan sonrakı hadisələr də araşdırılsın, məsələlərə hüquqi qiymət verilsin. Bizim vəzifəmizə siyasi qiymət vermək düşmürdü".

M.Mütəllimli AXC hökumətinin buraxdığı səhvlərdən də danışdı: "Xalq Cəbhəsinin hakimiyyəti dövründə ciddi kadr səhvlərinə yol verildi. İqtidara təsadüfi adamlar çox gəldi. Nəticədə cəmiyyətdə müəyyən xəyal qırıqlığı yarandı. Xalq başqa şey gözləyirdi. Ümid edirdi ki, Xalq Cəbhəsi hakimiyyətə gəlib çox işlər görəcək. Təəssüf ki, bir sıra işlər görülməsinə baxmayaraq, xalqın ümidləri doğrulmadı. Xalqın məhz 4 iyun qiyamına laqeyd yanaşmasının səbəblərindən biri də bu amil oldu. Elçibəy hakimiyyətində 1-2 ay maaşlar verilməyəndə insanlar küçələrə axışırdılar, fikirləşirdilər ki, demokratik hakimiyyətdir, nə istəsələr deyə bilərlər. Kadrlarla bağlı buraxılan səhvlər, islahatlarda buraxılan boşluqlar daxili və xarici qüvvələrə imkan verdi ki, milli hakimiyyətin devrilməsi proseslərini sürətləndirsinlər".

Müsahibimiz 4 iyun qiyamının səbəbkarlarının, günahkarlarının layiqli cəzalarını almadıqlarını da söylədi: "4 iyun qiyamı Azərbaycana böyük zərbə vurdu. Torpaqlarımızın işğalı prosesi o qiyamdan sonra sürətləndi".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"



# NATO üzvü və Avropanın mühüm dövlətindən Azərbaycana dəstək

## Polşa Cənubi Qafqaz ölkələri içərisində Azərbaycanla əməkdaşlığa önəm verir

**Ötən həftə Polşa prezidenti Andjey Duda Azərbaycanda ilk rəsmi səfərdə oldu. Polşa prezidenti Azərbaycan prezidenti İlham Əliyevlə görüşdü, eyni zamanda biznes konfransda iştirak etdi və polşalı memarların Bakıda xatirəsinə həsr edilən lövhələrin açılış mərasimində iştirak etdi.**

Polşa Azərbaycan üçün əhəmiyyətli dövlət hesab edilir. "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, Polşa prezidentinin səfəri iki ölkə arasında münasibətlərin strateji əhəmiyyətindən xəbər verir. Dudadan əvvəlki prezidentlər də Azərbaycanda olublar, eləcə də İlham Əliyev iki il əvvəl Polşada rəsmi səfərdə olub. O zaman iki ölkə arasında strateji tərəfdaşlıq sazişi imzalandı ki, həmin sənəddə əlaqələrin mahiyyəti vurğulanıb: "Polşa Avropa ölkələri içərisində Azərbaycana önəm verən əsas ölkələrdəndir. Azərbaycanın da üzv olduğu Avropa İttifaqı Şərq Tərəfdaşlıq Proqramı ideyası da vaxtilə Polşa tərəfindən irəli sürülüb. İki ölkə arasında siyasi əlaqələr yüksək səviyyədə olsa da, ticarət dövriyyəsi böyük deyil. Ona görə də hazırda iki ölkə arasındakı əlaqələrin inkişafında başlıca məqsəd istisadi əlaqələri yüksək səviyyəyə qaldırmaq, ortaq layihələri hərəkətə gətirməkdir. Polşada fəaliyyət göstərən Azərbaycan Ticarət evinin də fəaliyyətini genişləndirməsinə ehtiyac var. Polşa Azərbaycanın iştirakçısı olan regional layihələrə, o cümlədən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinə maraq göstərir. Energetika sahəsində də əməkdaşlığın inkişafı perspektivləri mövcuddur. Məsələn, Polşa prezidenti təklif etdi ki, Ələt Beynəlxalq Dəniz Ticarət Limanında yaradılan azad sənaye zonasında Polşa şirkətlərinin də nümayəndəliyi olsun. Və ya Polşa prezidenti Varşavanın Azərbaycanın "bir kəmər, bir yol" layihəsindəki iştirakından faydalanmaq istədiyini bildirdi. Polşa Azərbaycanla Avropa İttifaqı arasında strateji sazişin qısa müddətdə imzalanmasında və Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyündə maraqlıdır. Hər ikisinin müsbət həlli Azərbaycanla Polşa arasındakı strateji münasibətləri üst səviyyəyə qaldıracaq".

Politoloq qeyd etdi ki, Polşa birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir: "Əlbəttə, Polşanın Ermənistanla da münasibətləri mövcuddur. Ancaq Varşava Cənubi Qafqaz ölkələri içərisində Azərbaycanla əməkdaşlığa önəm verir. Varşava da bilir ki, Ermənistan müstəqil dövlət deyil, Rusiyadan asılıdır. Varşavanın isə Rusiyanın nəzarətində olan ölkələrə münasibəti birmənalı deyil. Polşa Avropa ölkələri içərisində Rusiyanın əsas tənqidçilərindəndir".

Qeyd edək ki, Polşa prezidenti Bakıya səfəri zamanı çıxışında Dağlıq Qarabağ münaqişəsi və onun həlli ilə bağlı konkret mövqeyini ifadə edib. O, bildirib ki, Polşa dövləti bu münaqişənin tənizmlənməsi prosesində Azərbaycanın mövqeyini dəstəkləyir, bu mövqe də beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanır. Beynəlxalq hüquq norma və prinsiplərinə əsaslanmaq isə o deməkdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı çərçivəsində öz həllini tapmalıdır.

Ekspertlərin fikrincə, Avropa İttifaqının və NATO-nun üzvü olan bir ölkənin prezidentinin bu mövqeyi Azərbaycan üçün çox əhəmiyyətlidir. Polşa həm dünyanın ən nəhəng hərbi siyasi təşkilatının, həm də bu gün dünyanın iqtisadi güc mərkəzlərindən biri olan, ümumdaxili məhsulun təxminən 25 faizini istehsal edən Avropa ittifaqının üzvü kimi Avropada nüfuzlu ölkələrdəndir. Polşa dövlətinin rəhbəri tərəfindən münaqişənin tənzimlənməsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsi, heç şübhəsiz, münaqişənin tənzimlənməsi prosesində Azərbaycanın həm siyasi, həm də hüquqi baxımdan mövqelərini gücləndirən amildir.

❑ E.SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019

**İspaniyanın paytaxtı Madriddə yerləşən "Vanda Metropolitano" stadionunda İngiltərənin "Tottenhem" və "Liverpul" komandaları arasında Çempionlar Liqasının final oyunu keçirildi. Rəqibinə 2-0 hesabı ilə qalib gələn "Liverpul" 14 ildən sonra yenidən Çempionlar Liqasının qalibi oldu.**



# Bakı və Madriddəki final oyunlarının müqayisəsi

## Həbs olunan azarkeşlər, bara hücum edən polislər, saxta bilet satanlar...

Mayın 29-da isə Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının finalında "Arsenal" ilə "Çelsi" üz-üzə gəldi. Həmin oyun isə 4-1 hesabı ilə "Çelsi"nin qələbəsi ilə başa çatdı. Diqqət edinizmi? Hər iki finalda meydana çıxan komandaların hamısı İngiltərəni təmsil edirdi. Bu, ən azı nadir hadisədir. Futbol tarixində belə bir şeyin olmasını xatırlamıram...

"Qırmızılar" 14 avqust 2019-cu ildə Türkiyənin İstanbul şəhərindəki "Wodafone Park"da keçiriləcək UEFA super kuboku matçında "Mavilər"lə qarşılaşacaq. İstanbulda keçiriləcək oyun barədə Qərb mediası nə yazacaq? İndidən nə isə demək çətindir. Ancaq Bakıda və Madriddə keçirilmiş final oyunları artıq arxada qalıb. Müqayisə üçün xeyli əsaslar var. Biz ortada olan faktları sıralayacağıq. Nəticəni isə özünüz çıxararsınız.

Bakidan başlayaq. "Arsenal"ın erməni əsilli yarımmüdafiəçisi Henrix Mxitaryanın Bakıya gəlməkdən nümayişkaranə şəkildə imtina etməsi və onun bu hərəkətinin "Arsenal" klubu tərəfindən dəstəklənməsi Britaniya mediasının anti-Azərbaycan kampaniyasına start verməsinə fürsət yaratdı. Erməni hökuməti və erməni diasporunun ciddi səyləri nəticəsində Azərbaycana düşmən olan qüvvələr xeyli fəallaşdı. Azərbaycanla bağlı hər şeyi boz-bulanlıq rənglərlə təqdim edən Qərb mediası utanıb-qızarmadan qərəzli şəkildə yalana informasiyalar yayırdılar.

Amerikanın "NBC News" nəşri isə lap ağ elədi: "Sovet İttifaqı dönəmində region (Dağlıq Qarabağ) Azərbaycana məxsus olub. Ancaq orada yaşayanların 95 (?) faizi erməni idi". Təbii ki, "NBC News" Qarabağ həqiqətlərin bizdən pis bilmir. Amma bu, onlara dezinformasiya yaymasına mane olmadı. Qərb mediasında bu məsələ ilə əlaqəli gedən yazıların bir çoxunu nəzərdən keçirmişdim. Ermənilərə simpatiya, Azərbaycana qarşı isə qərəzkarlıq birmənalı şəkildə ortada idi. Bu qərəzkarlıq hətta "ikili standartlar" çərçivəsindən belə, xeyli kənara çıxmışdı. Bu kimi hallarla tez-tez üzləşdiyimə görə Qərb mediasında gedən yazılara tənqidi yanaşıram.

BBC Madriddə baş tutan final oyunu haqqında yazır ki, cümə gününü yolda keçirən hər iki komandanın azarkeşlər İspaniyaya fırıldaqçılarla üzləşib. UEFA bəyan edib ki, müxtəlif bəhanələrlə sizin biletinizi əlinizdən alıb "yoxlamaq" istəyəcəklər. Buna imkan verməyin. Çünki cinayətkar qruplar bu yolla sizi aldatmaq istəyir.

BBC yazır: "Azarkeşlərə xəbərdarlıq edilib ki, giriş biletini yalnız stadionun yoxlama zonasında olan kəslərə göstərmək olar. İspaniya polisi bir çox adamı saxta bilet satdığına görə həbs edib. O cümlədən, "Liverpul" azarkeşlərinin toplaşdığı məkanda saxta bilet satmağa cəhd edən iki nəfər saxlanılıb".

İspaniya polisi ingilis azarkeşlərə bildirib ki, yaxşı olar ki, onlar özlərini "turist kimi aparsınlar". Fanatlara nəzarəti gücləndirmək üçün şəhərə əlavə olaraq 1.300 polis zabiti yeridilib. Polis zabiti Jose Ramon Carrasco "BBC"yə deyib: "Biz başa düşürük ki, azarkeşlər səs-küy salacaq, kefləri kökdür, nəğmə oxuyacaq. Ancaq onlar butulkaları küçələrə vızıldadanda və ya bir-biri ilə dava edəndə onları başa düşmək bizim üçün çətin olur. Belə davranış qəbul olunmazdır".



BBC onu da qeyd edir ki, finalla bağlı təşkil olunmuş bəzi carter uçuşlarında yaranmış problemlər də azarkeşləri məyus edib. "BBC" 4 ingilis azarkeşin finaldan öncə polis tərəfindən həbs olunduğu haqqında da məlumat yayıb. Həbs olunanların polislərə də hücum etdiyi vurğulanır. Digər mənbələr isə 6 nəfərin polis tərəfindən saxlanıldığını bildirir.




BBC-nin başqa bir xəbərində isə deyilir ki, "Radio Wales"in aparıcısı 47 yaşlı Wynne Evans özünə və 14 yaşlı oğluna bilet almağa çalışıb. Online aldığı bileti sonra başqasına satıblar. Görüblər ki, həmin bileti daha baha satmaq mümkündür. Onun iki bilet üçün ödədiyi 7 min funt-sterlinqin geri ala biləcəyi də sual altındadır. Buna baxmayaraq, məşhur aparıcı "Qara bazar"a üz tutub. Özünə və oğluna bilet alıb.

Onlar heç bir halda bu finaldan kənarda qala bilməzdi. Bəs o, ikinci dəfə aldığı biletə nə qədər verib? "7 min funt-sterlinqdən çox ödədim" deyir.

CNN isə daha dəhşətli şeylər yazıb: "Biletin biri 10 min dollar, 12 saat yol gəlmiş insanlara gecələmək üçün yeri 9 min dollara verirlər".

Məqalədə deyilir ki, Madrid rəhbərliyinin hesablamasına görə, final oyununu izləmək üçün 100 min ingilis azarkeş paytaxta gəlib. Stadion isə 68 min nəfər tutur. UEFA-nın rəsmi saytı üzərindən 4 min bilet satılıb. Hər iki komandanın azarkeşlərinə isə 17 min bilet verilib. Yerdə qalan biletlər isə müxtəlif təşkilatlara ötürülüb.

CNN dönə-dönə qeyd edir ki, bilet almaqla bağlı ciddi problem yaşanıb. "Liverpulun" azarkeşi "CNN"ə deyib ki, bir nəfər "Tottenhem"in azarkeşinə bileti 8 min funt sterlingə (10.100 dollar) satıb. 31 min dollardan baha satılan bilet haqqında da CNN-ə məlumat daxil olub.

Rusiyanın "matchtv.ru" saytı isə bildirir ki, UEFA azarkeşlərə xəbərdarlıq edib ki, qara bazarda satılan biletlərin əksəriyyəti saxtadır. Saxta bilet alanlar isə stadiona buraxılmayacaq. Zatən BBC də, CNN də final oyunu ilə bağlı hazırladıqları reportajlarda saxta bilet məsələsinə dönə-dönə toxunurlar.

Britaniyanın "standard.co.uk" saytı da 4 azarkeşin həbs olunması barədə xəbər yayıb və əlavə edib ki, azarkeşlərdən biri polis tərəfindən "heç bir səbəb olmadan" döyülüb və həmin insident lentə alınıb.

www.iol.co.za saytınında da biletlərin baha satılması ilə bağlı belə bir məqam diqqət çəkir "Qara bazardan bilet alanlar arasında Türkiyədən gələn mühəndis Kemam Kalkavar da vardı. O, "Liverpul un azarkeşidir və Ankaradan bir qrup dostu ilə Madridə uçub. Bilet almaq üçün 5 min avrodan keçməyə hazırdı...

İspaniya polisi cümə günü Venesueladan olan bir xanımı Sol meydanında həbs edib. O, Ruminiyadan gələn azarkeşə 4.200 avroya saxta bilet satarkən yaxalanıb. Bu məlumat polis idarəsinin mətbuat katibi tərəfindən səslənib. Sayt daha iki nəfərin saxta bilet satdığına görə həbs olunduğunu bildirir və qeyd edir ki, polisin həbs etdiyi ingilis azarkeşin çantasından üyüşdürücü maddə çıxıb.

Bu sayt isə iddia edir ki, 70 ingilis həftə sonunun Madriddə keçirəcək və onlar şəhərdə 21 milyon avro xərcləyəcək. 56 yaşlı hesabdar Lew Cooper deyir ki, o, oğlu Robertlə Madridə gəlib. Ancaq o, təyyarəyə bilet almaqda çətinlik çəkib. Çünki biletlər çox baha olub. Ona görə də onlar gəmi ilə İspaniyaya gəlib, daha sonra isə qatara bilet alıblar.

"The Washington Post" isə qeyd edir ki, Mohamed Salahin vurduğu 11 metrlik cərimə topundan sonra ən maraqlı hadisə 18-ci dəqiqədə yaşanıb. Çimərlik paltarında olan bir xanım özünü yaşıl meydana atıb və oyunda fasilə yaranıb...

"irishmirror.ie" isə yazır ki, 33 yaşlı ingilis azarkeş kütlə qarşısında masturbasiya nümayiş etdirib və həmin görüntülər sosial şəbəkələrdə yayımlanıb. Daha sonra o, İtaliyadan gələn turisti ələ salıb və polisə hücum çəkib. Həmin şəxs cümə günü axşam polis tərəfindən həbs olunub. İspaniyanın "El Mundo" qəzeti isə yazır ki, həmin şəxs qadın turistə zərbə endirib və xəsarət alan xanımı xəstəxanaya çatdırıblar. "irishmirror.ie" qeyd edir ki, polisin gecə barlarının birinə soxulması və 50 nəfərə hücum etməsi barədə də iddialar var. Deyilir ki, polis hücum nəticəsində bir çox turist yaralanıb.

Men in Blazers adlı Twetter istifadəçisi isə yazıb: "Bakı, sənə güldüyümüzə görə bizi bağışla. Geriyə baxanda görürük ki, ora Madriddən daha yaxşı idi".

Başqa bir istifadəçi - SBNation Real Madrid saytının baş redaktoru Lucas Navarrete yazır ki, bu, Çempionlar Liqasında bizim baxdığımız ən pis final oyunu idi.

Britaniyanın "The Daily Mail" nəşri isə final oyunu zamanı meydana çıxan yarıçılpaq qadının rus modeli olduğunu və sevgilisinin porno-saytını reklam etmək üçün saytın adını sinəsinə yazdığını bildirir. Bu yolla xanım Kinsey Wolanski sevgilisi Vitaly Zdorovetskinin "Vitaly Uncensored" saytını məşhurlaşdırmaq istəyib. 2014-cü ilin Dünya Çempionatının finalında isə Vitaly özü şəxsən yaşıl meydana hücum çəkmişdi. Xanım Wolanskinin isə "Instagram"da 300 min izləyicisi var. "Vitaly Uncensored"a "YouTube" üzərindən 1.6 milyard adam baxıb. Vitaly Zdorovetski "YouTube"da daha çox "VitalyzdTv" adı ilə tanınır.

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019

# İşıq limitinin ləğvi məsələsi yenidən gündəmdə

## İqtisadçılara görə, ölkədə elektrik enerjisinə tətbiq edilən limit əsaslı deyil və tamamilə götürülə bilər...

**Elektrik enerjisinə tətbiq edilən limitin ləğvi məsələsi ötən həftəsonu Milli Məclisdə yenidən gündəmə gətirilib. Belə ki, deputat Fazil Mustafa bildirib ki, elektrik enerjisinə tətbiq edilən limit aradan qaldırılmalıdır.**

"Biz Milli Məclisdə qazın limitinin aradan qaldırılması ilə bağlı məsələ qaldırmışdıq. Prezidentin tapşırığından sonra limit müəyyən qədər artırıldı. Bu, müsbət addımdır. Hesab edirəm ki, elektrik enerjisinə tətbiq edilən limit də aradan qalxmalıdır", - deyə o qeyd edib.

O əlavə edib ki, elektrik enerjisi istehlak edən əhali qrupunun vəziyyəti yaxşı deyil: "Yay mövsümü kondisionerin, qış mövsümündə isə soyuq hava elektrik enerjisindən daha çox istifadə etməyi qaçılmaz edir. Hesab edirəm ki, elektrik enerjisi ilə bağlı limit aradan qaldırılmalıdır".

Onu da qeyd edək ki, qaz limitinin ləğvi müzakirə edilən zaman elektrik enerjisi ilə bağlı da fikirlər səsləndirilmişdi. Bir sıra ekspertlər əsaslandırmışdılar ki, Azərbaycanda işıq limitinin ləğvi iqtisadi baxımından tamamilə mümkündür və bu, heç də müvafiq qurumlar üçün çətinlik yaratmaz.

Yay mövsümü olduğu üçün hazırda əhali elektrik enerjisindən daha çox istifadə edir. Bu xüsusda sosial şəbəkələrdə də elektrik



enerjisi ilə bağlı limitin ləğvi məsələsi arzu edilir.

"Yeni Müsavat"a danışan iqtisadçı Fikrət Yusifov da bildirdi ki, Azərbaycanda elektrik və qaz limitinin ləğvi tamamilə mümkündür: "Elektrik enerjisinin satışı ilə məşğul olanlar çalışırlar əsaslandırsınlar ki, maya dəyəri baha başa gəldiyi üçün qiyməti qaldırmağa məcburdurlar. Ancaq mən, onların dediklərini qəti şəkildə qəbul etmirəm. Hesab edirəm ki, işığın, qazın və dövlət monopoliyasında olan müəssisələrin göstərdiyi xidmətlərin maya dəyərini araşdırsan, orada bəs deyincə rezervləri görmüş olarıq. Bu gün təşkilatlar özlərinin fəaliyyətlərində nə qara məqamlar varsa, onların hamısını maya dəyərinə daxil edirlər. Məhsulun maya dəyərini normal şəkildə araşdırdıqda görmək olar ki, orada böyük ehtiyatlar var. Müstəqil şəkildə, bu işi yaxşı bilən peşəkarlar araşdırma edə bilərlər. Bu zaman ortaya xeyli məqamlar çıxar. Müxtəlif səbəblərdən 3 qəpiyə yerin altından çıxarılan qaz 10 qəpiyə satılanda belə, əldə edilən gəlir, xərcləri bağlamır. Hansı ki, bu xərclər yersiz şəkildə maya dəyərinə daxil edilib. Azərbaycan iqtisadiyyatının ciddi problemlərindən biri də maya dəyəri ilə bağlıdır. Rezervlər kifayət qədərdir ki, bu limitlər ləğv olunsun".

İqtisadçı Natiq Cəfərli də bildirib ki, Azərbaycanda elektrik enerjisinə tətbiq edilən limit tamamilə ləğv edilməlidir: "Bu limitin qəbul edilməsi əslində absurd qərar idi. Çünki Azərbaycan əhalisi dolayısı ilə elektrik enerjisinin istehsalında iştirakçıdır. Ona görə ki, Azərbaycanda dövlət investisiyalarının hesabına elektrik enerjisi istehsal edilir. İstər modul stansiyaları, istərsə də qaz stansiyaları olsun, onların hamısı büdcədən maliyyələşir. Burada heç bir özəl sektor çalışmır ki, qoyduğu vəsaitin geri qayıtması üçün qiyməti qaldırsın. Dövlət investisiyalarının formalaşması və yerinə yetirilməsində isə hər bir Azərbaycan vətəndaşı, vergi ödəyicisi kimi iştirak edir. Ona görə də biz artıq elektrik enerjisinin istehsal prosesinə çəkilən xərcin ilkin olaraq ödəyicisi kimi çıxış edirik. Bu baxımdan elektrik enerjisinə, təbii qaza limitlərin qoyulması normal yanaşma deyildi. Bu gün həmin limitlər ləğv edilərsə, yerində atılmış addım olar. Çünki elektrik enerjisi ilə bağlı problemlər bu gün də davam edir və əhalinin cibinə ziyan vuran amillərdən birinə çevrilib".

İqtisadçı bildirdi ki, limitlərin artırılması da sərf edə bilər, bu, nə qədər artırılmadan asılıdır: "Qazdakı limitin artırılmasından çox, ləğvi əhali üçün daha sərfəli idi. 2004-cü ildən bəri səmt qazı Azərbaycana pulsuz verilir. Bu, ildə 2.5 -3 milyard kubmetr qaz deməkdir. Ölkə əhalisinin işlətdiyi qaz da təxminən bu qədərdir. Ona görə də limitin tamamilə ləğv edilməsi, daha məntiqli olardı. O cümlədən eyni məsələ elektrik enerjisinə də aiddir. Çünki bu enerji də daxili xammal hesabına formalaşır. Həmin enerji müəssisələrinin də yaranmasında, Azərbaycan əhalisi vergi ödəyicisi kimi iştirak edir. Buna görə də hər iki sahədə limit ləğv edilə bilər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Neft ucuzlaşır - manat yayda "üşüyə" bilərmi...

## Ekspert: "Əgər yaxın zamanda qiymət 60 dollardan aşağı düşsə..."

**"Qara qızıl"ın qiyməti ilə bağlı bədbin xəbərlər gəlməkdədir. Belə ki, birjalarda neft kəskin ucuzlaşıb. İCE London birjasında "Brent" markalı neft 5,17 faiz ucuzlaşaraq bareli 61,95 dollara düşüb. Sonuncu dəfə "Brent" nefti bu il fevralın 12-də 62 dollardan aşağı həddə olub.**



Qeyd edək ki, Azərbaycanın dövlət büdcəsində neftin 1 bareli 60 dollardan götürülüb və artıq qiymət həmin kritik həddə yaxınlaşmaqdadır. Bəs görəsən, qarşıdakı müddətdə neftin qiyməti ucuzlaşmaqda davam etsə, yay aylarında manatın məzənnəsi ilə bağlı təhlükə yarana bilərmi?

"Yeni Müsavat"ın sualını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, neftin qiyməti ucuzlaşsa da hələ ki, manat üçün təhlükəli hədd çatmayıb: " Çünki manat inzibati qaydada tənzimlənən bir valyutadır. Mərkəzi Bank da 2015-2016-cı illərdə israr etdiyi "üzən məzənnə" terminindən də imtina edir. Dolayısı ilə etiraf edildi ki, məzənnə inzibati qaydada tənzimlənir və inzibati qaydada qərarla müəyyənləşdirilir. Neftin qiyməti təhlükəli həddə çatmayıb, manata birbaşa təzyiqlər yoxdur ki, yayda hər hansı proses baş versin. Hazırda neftin 1 bareli dünya bazarında 62 dollaradır. Azərbaycanda da dövlət büdcəsində neftin qiyməti 60 dollardan götürülüb. Bu səhv yanaşma idi. O zaman da biz xəbərdarlıq etdik, ancaq büdcənin formalaşdırılması zamanı 60 dollardan götürdülər. Bu gün artıq neftin qiyməti təhlükəli sərhədə yaxınlaşıb. Əgər neft qiymətləri enməkdə davam edəcəksə, manata təzyiq yarana bilər. Bu qədər siyasi gərginliklərə baxmayaraq, İran, Venesuela , Liviya ətrafında baş verən gərginliklərə baxmayaraq neft bahalaşmırsa, deməli, hazırda neftin bahalaşma potensialı çox azdır. Başqa vaxt olsaydı, bu qədər gərginlikdən dolayı neftin qiyməti 100 dolları keçmiş olardı".

İqtisadçının sözlərinə görə, neft uzun müddət 55 dollardan aşağı qiymətdə qalarsa, o zaman bu manat üçün də gərginlik deməkdir: "Ancaq iqtisadi faktorlar, dünyadakı ticarət müharibələri, neft hasilatının bir çox ölkələrdə, o cümlədən Amerikada artması, Amerikanın dünyada neft istehsal edən lider dövlətə çevrilməsi, xaricdən neft alışını xeyli azaltması dünya bazarında neft qiymətlərini də aşağı çəkir. Əgər yaxın zamanda neft qiymətləri 60 dollardan aşağı düşərsə, 55 dollardan aşağı qiymət görəriksə, bu qiymətlər uzun müddət qalarsa, Azərbaycan manatı ilə bağlı da gərgin vəziyyət qala bilər. Ancaq neftin qiymətinin 55 dollardan aşağı olması məzənnə ilə bağlı problemin yaranmasına səbəb ola bilər Hələ ki, belə bir təhlükə yoxdur, ancaq təhlükəli trend var. Qiymətlər 60 dollardan aşağı düşərsə, bu artıq dövlət büdcəsinin parametrlərinə mənfi təsir etməyə başlayacaq".

İqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov isə hesab edir ki, neftin qiyməti iqtisadi amillərdən daha çox geosiyasi amillərdən asılıdır: "Hazırda qiymət düşür, bu bizim üçün pis haldır, valyuta ehtiyatlarımız azalacaq. Ancaq əvvəlki bir neçə ayda neftin qiyməti yüksək oldu, kifayət qədər əlavə valyuta ehtiyatı toplamışıq. Dövlət büdcəsində bu il üçün neftin qiyməti 60 dollar nəzərdə tutulub. O baxımdan inanmıram ki, yay aylarında manatın qiyməti ilə bağlı nə isə problem yaransın. Həmçinin Mərkəzi Bankla Neft Fondu manatın sabitliyini qoruyacaqlar". Ancaq neftin qiymətinin düşməsi uzunmüddətli olsa, belə bir ehtimal var. Payız aylarının ciddi problem gözlənilə bilər. Hər şey neftin qiymətinin necə dəyişəcəyindən asılıdır".

Ə.Həsənovun sözlərinə görə, uzunmüddətli dövrdə neftin qiymətinin kəskin ucuzlaşması ehtimalı böyükdür və bu baxımdan manatın neft qiymətlərindən asılılığının azaldılmasına ehtiyac var: "Bəzi ekspertlər də hesab edir ki, yaxın vaxtlarda neftin qiyməti 30 dollara düşəcək. Bizim iqtisadiyyatın mənfi cəhəti odur ki, tamamilə neftin qiymətindən asılıyıq. Son illər bu asılılıqdan xilas olmaq üçün hökumət nələrsə etməyə çalışdı, ancaq qurtula bilməmişik. Əgər həqiqətən də neft qiyməti 30 manata düşsə, ehtimal var ki, bu il olmasa belə gələn ildən dollar 2 manatı ötə bilər. Ancaq yalnız neftin kəskin ucuzlaşacağı dövrdə bu belə ola bilər. Onu da qeyd edək ki, ortamüddətli dövrdə , yəni 3-4 ilə neftin qiymətinin kəskin düşmə ehtimalı böyükdür. Yəni bu zaman zərfində milli valyutamız üçün ciddi təhlükələr var".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019



# Meydançaya qaçan çılpaq qadının aktına dair düşüncələr

Samir SARI

**Biz gərək bir çox şeyləri gerçəkdən də ürəyimizə salmayaq. Dünyanın, demək olar ki, bütün ölkələrində hər cür hadisə baş verir.**

Məsələn, seldir, qasırğadır, texnogen qəzalardır - hər yerdə olur. ABŞ-da və Yaponiyada elektrik kəsintisi üzündən bütöv bir şəhərin qaranlıqda qalması halları vaxtaşırı baş verir. Filmləri də var.

Amma bizdə belə bir düşüncə var ki, o cür pis şeylərin hamısı yalnız bizdə olur. Banqladeş tərəflərdə günaşırı baş verən gəmi-bərə qəzaları, Çində həftəaşırı baş verən mədən-şaxta çökmələri, Hindistanda olan silsilə qatar qəzaları bizdə olsa, yəqin ki, tablaşa bilmərik. Yenə o gözgörünməzə şükür edək.

Odur, ötən həftə Avroliqanın final oyunu zamanı əyinlərinə Mxitaryanın adı yazılmış köynək geyinən iki avropalı azarkeş (suratlarından açıq görünürdü, həm də məlum oldu ki, onlar İndoneziya tərəflərdən imişlər) Bakıda təşər-təşər gəzərkən milli polis onlara yaxınlaşmış, "bir hovur ayaq saxlayın" deyə onlara xitab etmiş, öz rəisi ilə ratsiya ilə danışdıqdan sonra "gedə bilərsiniz" demişdi. Bütün bu proses cəmi 16 saniyə çəkmişdi. Videosu da var, saniyəbəsaniyə çəkilmiş fotoşəkilləri də...

Amma nə baş verdi? 15 dəqiqədən sonra İngiltərə qəzetləri o avro-asiyalı iki gədənin polislə üzbəüz durduğu yerdə şəklini verdi və yazdı ki, Bakıda Mxitaryanın köynəyini geyən azarkeşləri saxlayıblar. "Saxlayıblar" - sanki danaboyun eləyib polis bölməsinə aparıblar, it sürütməsi eləyib maşına basıblar, eşşəkcə döyüblər, zorla ölkədən deportasiya ediblər və s.

Sonra əksər qəzetlər və saytlar bu barədə yazdılar, Ağcaqum tozanağı qopartdılar. Hadisənin məğzindən xəbəri olmayan adi oxucu elə bilərdi ki, Azərbaycan Myanmaya dönüb, hərbçilər küçədə blok-post qoyublar, addımbaşı bütün turistləri saxlayır, sorğu-sual edirlər.

Yazdıqları yazılarda, statuslarda Bakıda baş verən 16 saniyəlik olayı "rəzalət", "biabırçılıq", "rüsvayçılıq" adlandıranlar da vardı. Videoya çəkildiyinə, cəmi 15 dəqiqədən sonra isə Avropada ictimailəşdirildiyinə görə bu hadisənin birmənalı olaraq öncədən düşünülmüş, palnlaşdırılmış təxribat olması şübhə doğurmurdu. Ancaq nə etmək olar? Biz belə təxribatlara uymayacaq qədər fəhm yiyəsi deyilik. Polisin gücü ona çatdı ki, o eynəkli, qırmızı köynəkli avro-asiyalıları küçədə şapalaqlanmadan və ya yortulmaqdan xilas etdi.

Prinsipcə, onları "təhlükəsizliklərini təmin etmək" məqsədilə ilə elə ordanca hop götürüb hansısa bölməyə aparmaq, sonra aeroport yollayaraq, çığırda-çığırda, finala tamaşa etmək imkanı vermədən ölkədən deportasiya etmək də olardı. Təəssüf ki, biz hələ bu kimi situasiyalarda da "yolavermə" siyasəti yeritməyi üstün tuturuq. Bu, təxminən "insanları öldürməyin, onsuz da öləcəklər" deyən mütəfəkkirin məşhur və ağıllı təklifinin Azərbaycansayağı variantıdır: "Şuluqluq edən turistləri ölkədən çıxarmayın, onsuz da 3-4 günə özləri gedəcəklər".

Qayıdaq mətləb üstünə. Baxaq, görək, Çempionlar Liqasının finalında nələr oldu. "Liverpul"un avtobusu tuneldə qaldı. Bütün Avropa mətbuatı bundan yazdı, amma hadisəni "rüsvayçılıq", "biabırçılıq" adlandırmadılar, "olan şeydir" dedilər. Bizdə olsaydı, əlbəttə ki, "təşkilatçıların məsuliyyətsizliyi üzündən baş verən görünməmiş biabırçı olay" olacaqdı.

Srağagün keçirilən final oyunu zamanı isə meydanşaya çimərlik geyimində bir qadın girdi və oyun dayandı. Əli və əyni yalın qadın oyunçulara heç bir təhlükə törətmədi, eləcə, meydanın mərkəzinə qaçdı, əndamını bir-iki milyard tamaşaçıya nümayiş etdirməyə macal tapdı və sekyuritilər onu tutub meydançadan çıxardılar. Yenə də İspaniyanı, Madridi yerdən-yerə vuran olmadı, "olan şeydir" dedilər.

Bizdə olsaydı, əlbəttə ki, bu, "təşkilatçıların məsuliyyətsizliyi üzündən baş verən rüsvayçılıq" olacaqdı, hələ irəli gedib deyəcəkdilər ki, yarıçılpaq qadının yerində terrorçu ola bilərdi, ona görə də bu, görünməmiş biabırçılıqdır.

Ona görə də gəlin özümüzü aşağılamayaq, nəsə bir xırda qüsur olanda özümüzü "əlindən-qolundan bir iş gəlməyən millət" kimi təqdim etməyək. Təşkilatçılıq məsələsində tərifi ərşə çıxmış ölkələrdə elə biabırçılıqlar olur ki... Sadəcə, onlar hər şeyi "olan şeydir" qrafasına sala bilirlər, biz isə burda öz aramızda süpürləşirik.

# Ziya Məmmədovla Abbas Abbasovun fərqi - ilginc gəlişmə

## Anar Məmmədov Bakıda "Arsenal"-"Çelsi" oyununa sərbəst gələ bilir, Aydın Abbasov isə ölkəyə gələrkən saxlanılır - səbəb...

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovla baş nazirin keçmiş müavini Abbas Abbasovun dostluq, biznes münasibətləri haqda mətbuatda çox yazılıb. Onları birləşdirən, dostluqlarına yol açan eyni komandada təmsilçilikləri ilə yanaşı, həm də biznes maraqları olub.**

Abbasovla Məmmədov vəzifədə olarkən müxtəlif korrupsiya kombinasiyalarında, müştərək maraqlarına cavab verən məsələlərdə eyni mövqedən çıxış edirdilər. Ən müxtəlif tədbirlərdən birgə fotoları yayılırdı. Bu da təsadüfi deyildi. Abbasovla Məmmədov eyni "səngəri" bölüşürdülər. 2013-cü ildə Abbas Abbasovun başının üstünü "qara buludlar" alanda bu posta Ziya Məmmədovu təqdim etmək cəhdləri də bəlli idi. Lakin Abbas Abbasov "vurulandan" sonra Məmmədova baş nazirin müavini postu verilmədi. Abbas Abbasov vəzifəsindən çıxarılandan sonra ölkədən getdi. Həmin dönəmdə onun oğlu Aydın Abbasov Azərbaycanda deputat mandatı daşıyırdı. Abbas Abbasov 2013-cü ildə hakimiyyətə qarşı planda yer alandan sonra onun deputat oğlunun vəziyyəti xeyli qəlizləşmişdi. Deputatı olduğu Gəncədə istifadəsində olan xidməti maşın saxlanılmış, Aydın Abbasov maşından düşürülmüş və nəqliyyat vasitəsi cərimə meydançasına aparılmışdı. Bir sıra mülkləri sökülmüş, bəziləri əlindən alınmışdı. O dövrdə Ziya Məmmədov dostunun oğluna kömək etmək iqtidarında deyildi. Çünki özünün də durumu ürəkaçan deyildi, mətbuatda tez-tez "Ziya Məmmədov yola salınır" başlığı diqqət çəkirdi. Bununla belə, Abbasovla Məmmədovun arasında əlaqə qalırdı. Ziya Məmmədovun "vurulması"nın əsas səbəbi kimi də məhz Abbas Abbasov faktorunun rol oynadığı bəlli olmuşdu. Dəqiqləşmişdi ki, Abbas Abbasov iqtidara qarşı müxtəlif oyunlarda yer alandan sonra da Ziya Məmmədovun onunla əlaqəsi olub. Onlar mütəmadi olaraq telefon əlaqəsi saxlayıblar. Ziya Məmmədovla Abbas Abbasovun nə danışdığı, nələr barədə müzakirə aparmasının təfərrüatları bilinməsə də, aydın idi ki, bu cür hərəkətlilik hakimiyyətə xoş olmayıb. Belə iddialar da vardı ki, Ziya Məmmədov vəzifəsindən çıxarılmazdan əvvəl sorğu-sual olunarkən Abbas Abbasovla əlaqəsini etiraf edib, deyib ki, bu münasibət hakimiyyətə qarşı yönəlməyib. Ziya Məmmədovun diqqətinə çatdırılıb ki,



Ziya Məmmədov



Abbas Abbasov

əgər Abbas Abbasovla əlaqələri hakimiyyətə qarşı olmayıbsa, o, bu barədə əvvəldən "yuxarıları" məlumatlandırmalı idi. Bütün bunlardan sonra Ziya Məmmədovun "qələmi qırılsa" da, onu vəzifədən aldıqdan sonra həbsə göndərilmədi.

Abbas Abbasova, onun oğluna qarşı sərgilənən münasibət Ziya Məmmədova yönəlik baş tutmadı. Abbas Abbasovun Rusiyada hakimiyyətə qarşı fəaliyyəti onun oğlunun xaricə qaçmasına, daha sonra ölkəyə dönərkən aeroportda saxlanılmasına qədər dərinləşmişdi. 2018-ci ilin oktyabrında yayılan xəbərlərdə deyilirdi ki, Abbas Abbasovun oğlu Aydın Abbasov Bakıya gələrkən hava limanında saxlanıb. Sabiq deputatın hansı səbəbdən saxlanıldığı açıqlanmasa da, onun ev şəraitində nəzarət altına alındığı, hətta bəzi mənbələr istintaq təcridxanasında olduğunu iddia edirdi. Bu xəbərlərdən sonra hələ Gəncənin deputatı olduğu vaxtlardan sosial şəbəkələrdə aktiv olan, ölkədə baş verən hadisələrə münasibət bildirən Aydın Abbasov müəmmalı şəkildə "yoxa çıxdı". Yada salaq ki, A.Abbasovun məhz sosial şəbəkədə Gəncənin icra başçısı Elmar Vəliyevə sui-qəsddən sonra yazdığı status geniş rezonans doğurmuşdu. 2 aylıq sükutdan sonra yenidən sosial şəbəkəyə qayıdan A.Abbasov oktyabrın 23-də Bakıda çəkdirdiyi şəkli özünün facebook səhifəsindən paylaşmışdı. Foto "Hilton Baku Hotel"in fonunda çəkilmişdi, Abbasovların evi o həndəvərdədir. A.Abbasovun oğlunun Rusiya prezidenti Vladimir Putinin Bakıya reallaşan səfərindən sonra üzə çıxması da diqqətdən kənarda qalmamışdı. Rusiya prezidentinin bu cür xırda məsələyə diqqət ayıracağı real olmasa da, Ramazan Abdulatipovun rəsmi Bakıdan belə bir xahişdə buluna biləcəyi ehtimalı səsləndirilirdi. Yada salaq ki, Beynəlxalq Bank işində həbs edilənlərdən biri də Aydın Abbasovun əmisi Nadir Abbasov idi. Nadir Abbasov 2016-cı ilin iyununda Beynəlxalq Bank və qaytarılmayan kreditlər işi ilə bağlı saxlanılmışdı. Həmin vaxt Naftalana müalicəyə gələn Dağıstan rəhbərinin Bakıdan N.Abbasov üçün xahiş etdiyi iddiası da vardı. Ramazan Abdulatipovun Azərbaycana gəlişinin ardınca Nadir Abbasov azadlığa buraxılmışdı.

Abbasovlara qarşı sərt reaksiyalar fonunda Məmmədovların ölkədə qalıb, sərbəst dolaşmaları diqqət çəkir. Düzdür, Ziya Məmədovun oğlu Anar Məmmədov hələ atası vəzifədə olarkən Azərbaycandan getmişdi. Abbas Abbasovdan fərqli olaraq Ziya Məmmədova görə qardaşları da həbsə alınmamışdı. Vəzifələrini, mövqelərini, bizneslərinin bir hissəsini itirsələr də, Məmmədovlar ölkədə qala bildilər. Hazırda isə Abbas Abbasovun dostunun yenidən dirçəlməsi prosesi gedir. Ziya Məmmədov özü vəzifəyə təyinat almasa da, qardaşı Elton Məmmədov 20 gün əvvəl Azərbaycan Texniki Universitetində (AzTU) Strateji inkişaf üzrə prorektor təyin edilib. Hansı ki, 3 çağırış deputat olub, Bakı Beynəlxalq Avtovağzalı da onun şirkətinin nəzarətində idi. Ziya Məmmədov vəzifəsindən çıxarılandan sonra kompleks Elton Məmmədovdan alınaraq Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyinin balansına verilib. Elton Məmmədov son seçkilərdə deputat ola bilməmişdi, ona bu imkanı tanımamışdılar...

Ziya Məmmədovun oğlu Anar Məmmədov əmisinin vəzifəyə təyinat almasından sonra Bakıya qayıtmasını da diqqətli izləyicilər Məmmədovlara qarşı loyallaşmanın nümunəsi kimi qəbul edirlər. Qeyd edək ki, Anar Məmmədov Bakıda keçirilən "Arsenal"-"Çelsi" oyunundan özünün İnstaqram səhifəsində video paylaşıb. Onun vəkili Nihat Axundov "Yeni Müsavat"a təsdiqləyib ki, Anar Məmmədov Bakıdadır. Buna qədər Anar Məmmədovun ölkəyə qayıdışının mümkün olmayacağı haqda xəbərlər dolaşırdı. Bildirilirdi ki, Anar Məmmədovun Bakıdakı fəaliyyəti arzuolunmazdır, onun ölkəyə gəlməsi də bu baxımdan baş tutmaya bilər. Belə görünür ki, ötən illər ərzində Məmmədovlara qarşı münasibət Abbasovlardan fərqli olaraq pisləşməyib, əksinə, yaxşılaşıb.

Bu gün Ziya Məmmədovun oğlu Anar Məmmədov ölkəyə sərbəst gəlir, qardaşı Elton Məmmədovu isə vəzifəyə təyin edirlər.

Eyni sözləri Ziya Məmmədovun dostu, biznes ortağı Abbas Abbasov haqda söyləmək çətindir. Baş nazirin sabiq müavini ölkəyə qayıda bilmir, oğlu Aydın Abbasov ölkəyə gələndə onu hüquq-mühafizə orqanlarının əməkdaşları qarşılayırlar, qardaşı Nadir Abbasov isə kredit borcuna görə həbsdə saxlanılır. Məmmədovlarla Abbasovların fərqi maraq doğurur - biriləri həbsə, digərləri dirçəlişə doğru addımlayırlar.

❑ E.HÜSEYNOV, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019

# "Biz ilk növbədə Rusiya ilə danışmalıyıq"

## Sülhəddin Əkbər: "Moskva tərəfindən təklif olunan masadakı variant budur"

**Ermənistan davamlı təxribatları ilə Qarabağ danışıqlarını pozmaq xəttini seçib. Paralel olaraq işğalçı ölkənin hakimiyyəti ilə Qarabağdakı separatçı rejim və ümumilikdə Qarabağ klanı arasındakı uçurumun dərinləşməsi yeni situasiya yaradır. Bu mövzuda Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının rəhbəri, Azad Demokratlar Partiyasının sədri, politoloq Sülhəddin Əkbərlə danışdıq.**

***- Sülhəddin bəy, Paşinyan hakimiyyəti birmənalı şəkildə danışıqları pozmaq kursunu davam etdirir. ATƏT-in Minsk Qrupunun bölgəyə səfəri zamanı növbəti təxribatlara əl atıldı. Vaşinqton görüşü planlaşdırıldığı halda nə baş verdi?***

- Birincisi, nədənsə həm Azərbaycan cəmiyyəti, həm bizim jurnalist dostlarımız israrlı şəkildə qəbul etmək istəmirlər ki, bu münaqişənin arxasında duran Rusiyadır. Biz əslində Rusiyanın Azərbaycana qarşı apardığı vəkalət müharibəsi ilə üzbəüz qalmışıq. Burda həm Ermənistan Respublikası, həm "Dağlıq Qarabağ respublikası" adlandırılan oyuncaq qurum sadəcə olaraq Rusiyanın vəkilləri rolunda çıxış edir. Ona görə də burda vəkillərin dəyişməsi, nə Ermənistanda, nə Dağlıq Qarabağda faktiki rəhbərliyin dəyişməsi həlledici rol oynamır. Əsas məsələ Rusiyada rejimin dəyişməsi, Rusiyanın Qafqaz siyasətinin, ümumiyyətlə, Cənub siyasətinin dəyişib-dəyişməməsidir. Neçə ki, Rusiyada imperiya ambisiyalı rejim davam edir, onun 300 illik tarixi olan Cənub strategiyası davam edir, bu konfliktdə Rusiya baxımından köklü bir dəyişiklik olmayacaq. Rusiyada hakimiyyətə kim gəlirsə-gəlsin, əgər Kreml imperiya ambisiyalarından vaz keçməyibsə, bu konfliktdə hər hansı həlledici irəliləyiş olmayacaq. "İrəliləyiş" yalnız o halda ola bilər ki, Ermənistanla Azərbaycan rəhbərliyi - hələ mən cəmiyyəti demirəm - Rusiyanın aralıq saziş variantına razılıq versin. Bu sazişin də mahiyyəti nədir? Bunu Duqin də öz müsahibələrində kifayət qədər açıqlayıb. Bir neçə rayonun qaytarılması müqabilində Dağlıq Qarabağa aralıq statusu verilir, sülhməramlı qüvvələr adı ilə Rusiya silahlı qüvvələri yenidən Azərbaycan ərazisinə qayıdır və Ermənistanın həm Türkiyə, həm də Azərbaycanla sərhədləri, kommunikasiyaları açılır. Nəzərə alsaq, Ermənistan strateji baxımdan, o cümlədən strateji-iqtisadi baxımdan Rusiyanın nəzarətindədir, bu, ilk növbədə Rusiyanın strateji maraqlarına cavab verir. Yeni Rusiya çoxdan istədiyi kimi yenidən həm Azərbaycanda hüquqi baxımdan legitim hərbi iştirakını təmin edir, Qarabağ məsələsini açıq şəkildə nəzarəti altına alır, həm də strateji uzantısı olan Ermənistanı blokada vəziyyətindən çıxarır.

***- Sözünüzdən belə çıxır ki, masa üzərində hazırda Rusiyaya məxsus həmin həll planı var, eləmi?***

- Bəli, masa üzərində olan həll variantı budur. Mahiyyət dəyişmir, formal olaraq kosmetik dəyişikliklər olur, Azərbaycan və Ermənistanda hakimiyyət dəyişikliklərindən, danışıqların gedişindən asılı olaraq. Mahiyyət etibarilə Rusiya tərəfindən təklif olunan masadakı variant budur.

***- Yəqin ki, Azərbaycan bu variantı qəbul etməz...***

- Azərbaycan rəhbərliyi buna razılaşar, əsas problem Ermənistan tərəfdədir. Azərbaycan tərəf ilkin olaraq 1-2 rayonun qaytarılmasına da razılaşar, Türkiyə rəhbərliyi də prinsipcə buna hazırdır.



**"Xalqın çiynində hakimiyyətə gələn xalqın istəyinin əleyhinə gedərsə, xalq onu başı üstə yerə çırpar"**

***- Yəni danışıqlarda irəliyə doğru addımların atılması naminə, eləmi?***

- Bəli. Həm Ankara, həm də rəsmi Bakı heç olmasa 1-2 rayonun qaytarılmasına razıdır, Ermənistan razılaşmır.

***- Təlimatları, əmr və tapşırıqları Kremldən alan İrəvandakı bu cəsarət hardandır ki, Rusiyanın masadakı planına qarşı çıxır?***

- Yaxşı sualdır. Xatırlayırsınızsa, Serj Sərkisyan buna prinsipcə razılıq vermişdi və bu haqda elə indi də Ermənistan mətbuatında yazılar gedir. Sərkisyanın devrilməsində bu amilin rolu heç də sonuncu olmayıb. Digər tərəfdən, indiki halda Paşinyanın bu həll planına razılıq verə bilməməsinin başlıca səbəbi onun xalqın dəstəyi ilə hakimiyyətə gəlməsidir. Çünki erməni cəmiyyəti bu razılaşmaya hazır deyil. Erməni cəmiyyəti işğal altındakı bir qarış torpağın belə, Azərbaycana qaytarılmasını istəmir, buna qarşıdır. Bunu Azərbaycan cəmiyyəti bilməlidir.

***- Bu da faktdır ki, Nikol Paşinyan erməni cəmiyyətini sülhə hazırlamaq üçün hər hansı addım atmır, əksinə, hərbi ritorikanı gücləndirir.***

- Bəli, addım atmır, çünki Paşinyan erməni xalqının çiynində hakimiyyətə gəlib. Xalqın çiynində hakimiyyətə gələn xalqın istəyinin əleyhinə getsə, xalq onu çiynindən başı üstə yerə çırpar. Ona görə də bu məsələnin həlli elə də asan deyil. Hətta Rusiya istəsə belə, Ermənistanda hakimiyyətə gələn demokratik qüvvənin bu niyyətini gerçəkləşdirməsi asan məsələ deyil. Çünki birincisi, erməni cəmiyyətini razı salmaq var. İkincisi, Rusiyanın Dağlıq Qarabağdakı strukturları və silahlı qüvvələri razı salmaq məsələsi var. Üstəlik, Rusiyanın Ermənistandakı hərbi iştirakını, Ermənistanın hava və quru sərhədlərinə nəzarətin Rusiyaya məxsus olmasını, eyni zamanda, Rusiya xüsusi xidmət orqanlarının Ermənistanda nə qədər güclü olmasını nəzərə almaq lazımdır. Bizim cəmiyyət bu məsələyə çox bəsit yanaşır.

Qarabağ məsələsində o halda irəliləyiş mümkündür ki, həqiqətən də Ermənistanda və Azərbaycanda eyni zamanda demokratik hakimiyyətlər olsun, Rusiyanın Cənubi Qafqazda mövqeyi və aktivliyi zəifləsin, tam tərsinə, demokratik dünyanın Cənubi Qafqazda iştirakı və aktivliyi güclənsin. Eyni zamanda, Azərbaycan bir dövlət olaraq müharibəyə tam hazır olsun.

***- Azərbaycan hazır olduğunu dəfələrlə bəyan edib.***

- Azərbaycan yalnız Ermənistanla müharibəyə hazırlaşmamalıdır. Bu müharibənin vəkalət müharibəsi olduğunu və Rusiya ilə üzbəüz olduğunu bilməlidir, hazırlığını da buna görə görməlidir.

***- İndiki durumda Qarabağ separatçıları ilə Ermənistan hakimiyyəti arasındakı gərginlik hara qədər davam edə bilər?***

- Ermənistandaxili siyasi proseslər ciddi xarakter alıb. Ermənistanda demokratik dəyişiklik olsa da, Qarabağ klanı hakimiyyətdən uzaqlaşdırılsa da, onun uzantısı olan oyuncaq "Dağlıq Qarabağ respublikası" ilə bağlı problemlər var. Paşinyan separatçı rejimlə bağlı siyasi məqsədlərini təmin edə bilməyib, orada Rusiya xüsusi xidmət orqanlarının tam nəzarətindfə olan rejim qalır. Həmin qüvvələr mayın 18-də Köçəryanın həbsdən azad olunmasına nail ola bildilər və Ermənistanda yeni bir vəziyyət yarandı. Paşinyan elan etdi ki, erməni inqilabı yeni mərhələyə daxil olub. Əslində məncə, buna erməni əksinqilabının yeni bir həmləsi deyilsə, daha doğru olar. Ermənistanda Köçəryanın rəhbərliyi ilə yeni müxalifətin formalaşdırılması prosesi başlayıb. Bu prosesə isə Kreml dəstək verir. Nəzərə alsaq ki, Qarabağ klanı hakimiyyətdən uzaqlaşdırılsa da, Ermənistanda həm siyasi, həm iqtisadi gücü nə qədər sarsılsa da, işğal zonasında hakimiyyət və bütöv resurslar onların nəzarətindədir. Kremlin dəstəyini də nəzərə alsaq, yaxın perspektivdə bu, Ermənistan daxilində Qarabağ klanının rəhbərlik etdiyi siyasi müxalifətin tədricən revanş götürmək niyyətinin güclənəcəyini müşahidə edə bilərik. Bunun da nəticəsində Ermənistan daxilində gərginlik yaranacaq, eyni zamanda bu gərginlik daxili qruplaşmalararası gərginliyə də keçəcək. Bu mənada yeni siyasi toqquşmaların şahidi ola bilərik.

***- Proseslərin gedişində Paşinyanın devrilməsi mümkündürmü?***

- Təbii ki. Hər şey mümkündür. Azərbaycanda 1993-cü il təcrübəsini nəzərə alsaq, o zaman hakimiyyət məhz bir ildən sonra devrildi. Yəni bu, Kreml üçün kritik bir müddətdir. Çünki inqilabi yolla hakimiyyətə gələn qüvvədən xalq qısa bir zamanda inqilabi dəyişiklər gözləyir. Amma müsbət dəyişikliklərin baş verməsinə də maksimum maneçiliklər olur. Müsbət nəticə əldə olunmayanda artıq inqilabi qüvvə getdikcə nüfuzdan düşməyə başlayır.

***- Rusiya həm də masaya qoyduğu Qarabağ planına görə Ermənistanın yeni hakimiyyətini, konkret halda Köçəryan və Sərkisyandan da sərt mövqe sərgiləyən Paşinyanı cəzalandıra bilərmi?***

- Ola bilər. Çünki Paşinyan çox mürəkkəb mövqedədir. Bir tərəfdən Qərblə yaxınlaşmaq istəyir, digər tərəfdən Rusiya ilə strateji əlaqələri qoruyub-saxlamaq istəyir, bu isə qeyri-mümkündür. Çünki fərqli strateji seçim etməklə köhnə strateji münasibətləri saxlamaq, qorumaq mümkün deyil. Yəni bu, paradoksal bir durumdur. O baxımdan Paşinyan strateji seçimini etməlidir. İndi o, həqiqətən də ağır bir durumdadır. Bir tərəfdən masada ABŞ-ın ötən il Con Bolton tərəfindən gətirilən təkliflər paketi, digər tərəfdən Rusiyanın təkid etdiyi təkliflər paketi. Əslində bu seçim həm də Azərbaycan hakimiyyətinə aiddir. Sadəcə olaraq indi yaranmış vəziyyətlə bağlı durum hakimiyyət üçün daha mürəkkəbdir. Çünki Azərbaycan hökuməti Kremlə daha yaxın mövqedədir.

***- Ənənəvi olaraq bir fikir səslənir ki, Ermənistan hakimiyyəti və Qarabağ klanı arasındakı toqquşma mühiti Azərbaycan üçün torpaqlarını azad etmək şansı yaradır. Sizin bu yanaşmaya münasibətiniz necədir?***

- Bu, iki baxımdan yanlış yanaşmadır. Birincisi, əgər həqiqətən də hakimiyyət müharibə etməyə hazır olsaydı və onun düşməni də yalnız Ermənistan olsaydı, bu yanaşma yerində olardı. Ancaq təkrar edirəm, qarşımızda yalnız Ermənistan və oyuncaq rejimə məxsus silahlı qüvvələr deyil. Qarşımızda Rusiya və rus-erməni hərbi birləşmələri var. Unutmayaq ki, Ermənistan həm Rusiyanın hərbi-siyasi müttəfiqidir, həm KTMT üzvüdür, həm də rus-erməni hərbi birləşmələri mövcuddur.

***- Ancaq Azərbaycan öz sərhədləri daxilində hərbi əməliyyatlar keçirəcək, Ermənistana hücum etməyəcək ki. Rusiya ilə qarşılaşsın...***

- Ay qardaş, nə vaxt başa düşəcəyik ki, Ermənistan Respublikasını da, Dağlıq Qarabağı da yaradan Rusiyadır? Nəinki Dağlıq Qarabağdakı rejimin, Ermənistanın da strateji sahibi Rusiyadır.

***- Sülhəddin bəy, deputat Qüdrət Həsənquliyev də dəfələrlə bildirib ki, Azərbaycan Ermənistanla yox, Rusiya ilə danışıq aparmalıdır. Deməli, siz də bu yanaşmanı qəbul edisiniz?***

- Strateji yanaşma baxımından əgər biz konfliktin həllini istəyiriksə, ilk növbədə Rusiya ilə danışmalıyıq. Çünki bu problemin adı Rusiyanın Azərbaycana qarşı apardığı vəkalət müharibəsidir. Bizim strateji tərəf müqabilimiz Rusiyadır - nə Ermənistandır, nə də qondarma "dqr".

***- Həmsədrlər növbəti dəfə bölgəyə səfər etdilər, heç bir nəticə əldə olunmadı, əksinə, gərginliyin artdığını müşahidə etdik. Belə demək olarmı ki, Vaşinqton görüşü də ciddi heç nə vəd etmir?***

- Xeyir. Neçə ki, bütövlükdə Cənubi Qafqazda, o cümlədən Ermənistanda və Azərbaycanda strateji baxımdan Rusiya nəzarət edir, burda həll istəyiriksə, bizim istədiyimiz həll ola bilməz. Rusiyanın istədiyi həll variantı ola bilər. Rusiyanın istədiyi həllin necə olacağı da aydındır. Əslində Rusiya bu dəqiqə konfliktin heç bir variantda həllində maraqlı deyil. Rusiya yalnız aralıq sazişinin imzalanmasında maraqlıdır. İstəyir ki, bir tərəfdən İran məsələsinin beynəlxalq gündəliyə gəldiyi bir vaxtda yenidən Azərbaycanda öz legitim iştirakını təmin etsin. Eyni zamanda Qarabağ münaqişəsini tam, etibarlı nəzarətində götürə bilsin.

***- İran məsələsinin gündəmə gəlməsi, bölgədə gərginliyin artması Azərbaycana nələr vəd edir? Bəzi müşahidəçilər hesab edir ki, Ermənistan öz ərazilərindən ABŞ-ın istifadəsi üçün icazə verə, Ermənistan-İran sərhədi bağlana bilər. Bu halda Qarabağı nələr gözləyir?***

- Burda əslində Kremli narahat edən iki başlıca məsələ var: 1. İran məsələsinin yenidən aktuallaşması və az ehtimallı olsa da, hərbi müdaxilə ehtimalının gündəmə gəlməsi. Çünki mərkəzlər ehtimallar az olsa da, bütün variantlara hazır olmalıdır. 2.Ermənistandakı hakimiyyət dəyişikliyi. Əgər bu, iki hal olmasaydı, elə əvvəlki status-kvo Kremli qane edirdi. Amma indiki halda, yeni Ermənistanda hakimiyyət dəyişikliyinin baş verdiyi və İran məsələsinin aktuallaşdığı bir vaxtda konfliktdəki mövcud durum Kremlin maraqlarını etibarlı təmin etmir. Etibarlı olması üçün Kreml düşünür ki, aralıq sülh sazişinə və Rusiya hərbi qüvvələrinin Azərbaycana gəlməsinə, bu münaqişənin tam nəzarətə götürülməsinə ehtiyac var. Ona görə də hər iki tərəfə bu münaqişə ilə bağlı təzyiq etməyə başlayıb.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**



# Bizdə heç nə itmir

Zamin HACI
zaminhaci@gmail.com

"- Bəs o qızıl pullar hanı?
Mən onları itirmişəm, - Pinokkio cavab verdi. Ancaq bu, yalan idi, çünki pullar onun cibində idi. Yalanı bitirməmiş, onun uzun burnu iki barmaq boyda da uzandı"

***(Karlo Kollodi, "Pinokkionun macəraları")***

**Biz - sovet dövrünün adamları (doğrudan da homo-sovetikus adlı xüsusi insan tipi vardır, başqa heç bir növə bənzəmir, ancaq indi mövzumuz ayrıdır, xırdalamağa vaxt yoxdur, hörmətli oxucular xahiş eləsələr, teleqram və məktublar yazsalar, buna toxunarıq) əsasən Almaniya Demokratik Respublikasında, Çexoslovakiyada (belə bir dövlətin olduğuna, üstəlik bir nəfərin burnunu qanatmadan ayrılıb 2 müstəqil dövlətə çevrilməsini indi kimə, necə izah etmək olar?) və başqa Şərqi Avropa sosialist düşərgəsi ölkələrində əsgərlikdə olanlarımızdan bu temada qəribə əhvalatlar eşidərdik. Deyirdilər, səhər kəndli sağdığı südü yolun qırağına qoyur, çıxır gedir, alıcılar özlərinə lazım olan qədərini götürüb pulu da ordakı qaba atırlar. Deyirdilər, meyvə ağacları küçədə bar gətirir, lakin camaat icazəsiz onları selbələmir. Danışırdılar, kiminsə pulu, qiymətli əşyası küçəyə düşür, səhərisi gün gəlib həmin yerdən tapır. O müddətdə həmin qiymətli əşyanı oğurlamaq başqalarının ağlına gəlmir. Belə şeylər bizə ekzotik, fantastik nağıllar kimi gəlirdi, çünki sovet adamı uşaq vaxtından oğurluğa öyrədilirdi. Buna məcbur idi. Kəndli tarladan, fəhlə zavoddan, partkom partiyadan oğurlamasa, yaşaya bilməzdi. Axırda oğurlamağa bir şey qalmayanda dövlət dağıldı getdi işinin dalıyca.**

İndi bunu niyə xatırlayıram? Çünki ölkəmizdə, müstəqil və çiçəklənən Azərbaycanımızda həmin Şərqi Avropa ölkələrinə bənzər müsbət tendensiya müşahidə etməkdəyəm. Hansı turist Bakıya gəlsə, portmanatını, çantasını, pulunu, telefonunu itirsə biz dərhal onu tapıb adamın özünə qaytarırıq. Xəbər lentinə baxsanız, internetdə axtarış versəniz neçə dənə bu cür xoş xəbərə rast gəlmək olar. Nəticədə bütün xarici qonaqlar bizdən razı gedirlər, öz ölkələrində Azərbaycan həqiqətlərini təbliğ edirlər.

Doğrudur, çox zaman jurnalistlər siyasi səhvə yol verir, tapıntını polisin həyata keçirdiyini yazırlar. Nəyə gərəkdir? Sanki bizdə çoxlu hüquq-mühafizə işçisinin olduğu, hər turistin iziylə bir polisin gəzdiyini bildirmiş oluruq. Halbuki, qətiyyən belə deyildir, uca millətimizin istənilən nümayəndəsi xarici qonaqların itkilərini tapmağa hazırdır, bunun üçün lazım gəlsə biz canımızı verərik. Biz, özü pəyədə yatıb evin ən yaxşı otağını haçansa gələcək virtual qonaq üçün saxlayan elin övladlarıyıq! Bu temada yaxşı ata sözlərimiz də vardır: "Qonağa can qurban", "Qonaq qonağı sevər, ev yiyəsi hər ikisini" və sairə. Qonaqkənd adında rayonumuz olub. Çox qonaq gəldiyindən indi yoxdur. Bəlkə də bərpa etməliyik.

Yaxşı yadıma düşdü, bizdə turist olmayanda bəzən özümüz turist olmağa, vətənin gözəlliklərini tərənnüm etməyə razılaşmışıq, hətta əslən cəbrayıllı, Mingəçevirdə yaşayan, lakin Dumanlı Albionu təmsil edən "ingilis" turistimiz olmuşdu, AzTV-yə intervüsü ilə hamımızın ürəyini açmışdı. Əlbəttə, bu da indi temamız deyil.

Üstəlik, qiymətli əşyalara, tapıntılara, yiyəsi bilinməyən obyektlərə münasibətdə biz turist-yerli fərqlənməsi qoymuruq. Hər kəsin itiyini tapıb qaytarırıq. Misal üçün, bu yaxında mən məhəllə dükanında gördüm, satıcı qadın yerdən qızıl medalyon tapıb yiyəsinə vermişdi. Düzdür, yiyəsi təşəkkür etmək əvəzinə "Bunun üstündə qızıl zəncir, böyründə brilyant qaşlı üzük, yanında "Kullinan" almazı və Tutanxamonun xəzinəsindən qızıl maska da olmalı idi" kimi iddia irəli sürmüşdü və söhbətin nə cür bitdiyini bilmədim, ancaq əsas məsələ Quran formasında medalyonun qaytarılması deyilmi?

Hər sahədə belə vicdanlı, namuslu, qeyrətli zəhmətkeşlərimiz yetişir. Adicə, dövlət büdcəsinə baxın. Orda milyardlar dövr edir, gəl gör, hansısa məmur ora pis gözlə, əyri əllə yanaşırmı? Bizdə heç məişət səviyyəsində də korrupsiya, oğurluq yoxdur. Tək Ramazan ayında deyil, bütün aylarda məmurlarımız, millətimiz nəfsinə hakim kəsilmişdir.

Bizim sovet əsgərləri o vaxt deyirdilər ki, çex, alman kəndlisi aralaşndan sonra biz gedib süd, ərzaq oğurlayırdıq. İndi də bizim Azərbaycanda oğurluq varsa, ancaq xarici əsgərlərdən, məsələn, erməni ordusundan şübhələnə bilərik.

(Artıq burnum klaviaturaya dəydiyindən sözlermj səhvfd yazırmadh, tamma).



# Ermənistan yeni inqilaba "hamilədir" - Paşinyanın başı dərddə

## İşğalçı ölkədə ziddiyyətli proseslər başlayıb: həm Qərb, həm də Moskva əleyhinə etirazlar artır; Rusiya patriarxı Kirildən ermənilərə ağır sözlər və hədə gəldi: "Yaxşılığı həyasızcasına unudan nankor xalq, Rusiya olmasa..."

**Daxili ziddiyyətlər Ermənistanı getdikcə daha güclü şəkildə içəridən "yeməkdədir". İnqilabdan bir ildən çox ötməsinə rəğmən, düşmən ölkə hələ də sabitliyə qovuşa və vəd edilən inkişaf yoluna çıxa bilməyib. Ona görə ki, yeni rəhbər - baş nazir Nikol Paşinyan da Ermənistan ətrafında sərt gerçəyi dəyişməyi bacarmayıb: ölkə həll olunmamış Dağlıq Qarabağ probleminin girovu olaraq qalmaqda, Qarabağa görə ağır blokadanın girdabında çabalamaqda davam edir.**

Mövcud durumda istənilən köklü islahat cəhdi iflasa məhkumdur. Ermənistanın inqilabçı rəhbərliyi isə reallığı dərk eləmək, "atı arabanın arxasından açıb qabağına qoşmaq" əvəzinə, yenə populist bəyanatlarla ac-yalavac cəmiyyəti "doydurmağa" çalışır. Belə bəyanatlar isə adətən qısa perspektiv üçün uğurlu olur. Enində-sonunda narazı əhali mütləq real iş tələb edəcək, hesab istəyəcək, "Nədən inqilab da güzəranımızı yaxşılaşdırmadı" kimi qanqaraldıcı suallar qoyacaq, ayağa qalxacaq. Proses buna yön almaqdadır.

Ötən şənbə - iyunun 1-də, Nikol Paşinyanın doğum günündə "Adekvad" təşkilatı İrəvanda Paşinyan əleyhinə etiraz aksiyası təşkil edib. Etirazçılar İrəvanın və daha 12 şəhərin mərkəzi küçələrindəki asfalta "Yalançı Nikol" qrafitiləri yerləşdiriblər. Təşkilat aksiyanı "Yalanın doğuluşu" adlandırdığını bildirib. Aksiyaçılardan 29 nəfər həbs edilib.

*****

Şübhəsiz, Paşinyan situasiyanın fərqindədir. O səbəbə özünü sığortalamağın yollarını arayır, ittihamlardan yayınmaq üçün ictimai diqqəti az əhəmiyyətli, 2-ci, 3-cü dərəcəli amillərə yönəltməyə cəhd edir. Nə qədər qəribə görünsə də, Ermənistanda həm Rusiya, həm də Qərb əleyhinə narazılıqların eyni vaxtda özünü büruzə verməsi bunun təzahürü sayıla bilər.

Məsələn, ötən həftə sonu İrəvanda "Soros fondu"na qarşı etiraz aksiyası keçirilib. Ofis qarşısında aksiyanı "Veto" ictimai-siyasi hərəkatının üzvləri təşkil ediblər. Onlar fondun və onunla əlaqəli qurumların fəaliyyətinin qadağan edilməsini tələb ediblər. "Veto"nun rəhbəri Narek Malayan aksiyada bəyan edib ki, Ermənistan hökuməti Fonddan göstərişlər alır, buradan media vasitəsilə ən çirkin hücumlar edilir, hüquq-mühafizə orqanlarına qara yaxılır. O iddia edib ki, Fond Ermənistanda vətəndaş müharibəsi və qanlı qarşıdurmalara təhrik edir.

Paralel surətdə Rusiyaya qarşı etirazlar böyüməkdədir. O sırada erməni mediasında Rusiyadan narazı ovqat özünü getdikcə daha qabarıq şəkildə göstərməkdədir. Bu, əlbəttə ki, Kremlə qarşı açıq nankorluqdur. Çünki Qafqazda Ermənistan adlı saxta dövlətin, ümumiyyətlə, ermənilərin varlığı Rusiyaya birbaşa bağlıdır. Günü bu gün vassal Ermənistanın Türkiyə və İranla sərhədlərini rus əsgərləri qoruyur, İrəvan məhz Kremlə arxayın olaraq, Dağlıq Qarabağın, Azərbaycanın digər ərazilərinin işğalını davam etdirir, hətta Azərbaycanı yeni ərazi işğalı ilə təhdid edir. Halbuki hərbi ekspertlərə görə, Rusiya Ermənistanın arxasından çəkilsə, Azərbaycan işğalçının işini bir həftəyə bitirər...

*****

Bu xüsusda Moskvanın və bütün Rusiyanın patriarxı Kirilin açıqlaması diqqət çəkir. "Yeni Müsavat"ın Rusiya mediasına istinadən verdiyi xəbərə görə, Ermənistandakı son olaylara münasibət bildirən patriarx yaxın tarixə qısa ekskurs edərək, ermənilər haqda olduqca sərt ifadələr işlədib.

"Erməni dövləti yaranan andan biz bu xalqı müdafiə edirik - hansı ki, hətta heç pravoslav da deyil. Biz Ermənistanı həmişə rus dövlətinin bir hissəsi hesab eləmişik və katolik erməniləri göz bəbəyimiz kimi qorumuşuq. Belə qəliz coğrafiyada o, (Ermənistan - "YM") Rusiyasız heç vaxt mövcud ola bilməzdi. İndi isə diqqət edin, necə də hər şey kəskin dəyişir və yaxşılıq necə də sərt formada və həyasızcasına unudulur. Sən demə, biz erməniləri istismar eləmişik və onların bu gün malik olduqlarını onlara verməmişik. Ermənilər vaxtilə onları taleyin ümidinə buraxmış ölkələrin felinə gedirlər. Erməni xalqına sülh arzulayıram. Ancaq onlar bir həqiqəti unutmasınlar: Rusiyasız onlar bu torpaqlarda çox mövcud olmayacaqlar - hansı torpaqlar ki, onların xilaskarlarının, rus pravoslav əsgərlərinin qanı ilə suvarılıb".

*****

Öz növbəsində rusiyalı tanınmış analitik Vitali Arkov hesab edir ki, Paşinyanın iqtidarı uzun sürməyəcək. Bu barədə o, axar.az-a müsahibəsində deyib.

"Onun Ermənistanın rəhbəri postunda uzun müddət qalmayacağı aydındır: ənənəvi dəyərlərin (o cümlədən ailəvi əsasların - Ermənistanda hazırda buna qarşı da fəal iş aparılır) dağıdıcısı kimi istifadə edib, sonra da onu siyasi boşluğa yollayacaqlar. Bu baxımdan Paşinyan nə ilk, nə də sonuncudur. Əlbəttə, çox istərdik ki, Ermənistanın özünün də bir vaxtlar qonşu Azərbaycanda olduğu kimi, ölkənin dirçəlişini və millətin birləşdirilməsini başlatmaq iqtidarında olan Heydər Əliyevi peyda olsun. Bu gün Azərbaycan - Cənubi Qafqazın lideri, böyük güclərin bərabərhüquqlu tərəfdaşıdır" - Arkov qeyd edib.

Onun qənaətincə, hazırda Moskva ilə İrəvan arasında birinci şəxslərin iştirakı olmadan həlli mümkünsüz olan bir çox problem var. "İrəvanda cari ilin 1 oktyabrında Putini gözləyirlər. Rusiya liderinin həmçinin Avrasiya Ali İqtisadi Şurasının iclası çərçivəsində bu səfəri baş tutacaq. Aydındır ki, ev sahibliyi edən tərəfə hörmətinə görə Putin Paşinyanla görüşəcək. Əlbəttə ki, əgər o vaxtadək erməni xalqının Paşinyanın boş vədlərinə qarşı artan narazılığı və həyat səviyyəsinin aşağı enməsi yeni inqilaba gətirib çıxarmasa", - deyə o qeyd edib.

Rusiyalı ekspertin sözlərinə görə, bu gün Paşinyan ilk növbədə mehriban qonşuluğu öyrənməlidir. "Ən əvvəl də Azərbaycanla. Qarşıdurmadan mehriban qonşuluğa keçid prosesi nə qədər çətin və uzun olsa da, ona başlamaq həyati vacibdir. İkincisi isə Ermənistan həqiqi müttəfiq olmağı bacarmaqdır. Belə olan halda hansı etibardan söhbət gedə bilər?" - ekspert fikrini tamamlayıb.

*****

Ermənilərin əsas problemi də odur ki, onlar nə düz-əməlli etibarlı müttəfiqdirlər, nə də normal və güvənilən qonşu. Azərbaycan və Türkiyə timsalında öz qonşularına, Rusiya timsalında isə müttəfiq və xilaskarına xəyanət xətti hələ də bədnam qonşularımızın kredosu olaraq qalır. Deməli, Ermənistanı daha taqətsiz hala salacaq, onun sonunu yaxınlaşdıracaq inqilabların ardı gələcək...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019



# Sülh danışıqları hansı plan ətrafında aparılır?

## Rusiyalı politoloqun Qarabağ bəyanatı Bakıda şübhə ilə qarşılandı

**"Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar Kazan psinsipləri əsasında aparılır". Bunu Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov ötən həftə "Azərbaycan Avropa məkanında" adlı konfransda deyib.**

O qeyd edib ki, hazırda Azərbaycanda 1 milyon qaçqın və məcburi köçkün var. BMT-nin Təhlükəsizlik Şurası, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması barədə dəfələrlə qətnamə qəbul edib. S.Markov əlavə edib ki, indiyədək heç bir ölkə Dağlıq Qarabağı ayrıca müstəqil dövlət kimi tanımayıb: "Dağlıq Qarabağ münaqişəsi dondurulub, çünki burada nə silahlı qüvvələr hərəkət edir, nə də sülhməramlı qüvvələr yerləşdirilib. Amma bunu dondurulmuş da hesab etmək olmur, çünki burada hadisələr baş verir. 2016-cı ilin aprelində həqiqətən müharibə baş verdi, təmas xəttində uzun müddət olmasa da, 4 gün ərzində yüzlərlə əsgər və mülki əhali həyatını itirdi. Lakin sonradan Moska Azərbaycan və Ermənistan rəhbərliyinə bir neçə dəfə zəng etdi ki, müharibə dayandırılsın".

İnstitut direktorunun sözlərinə görə, Ermənistan yalnız Dağlıq Qarabağı deyil, onun ətrafındakı 7 rayonu da nəzarətə götürüb: "Bu rayonlarda etnik təmizləmə həyata keçirilib, əhali oradan köçürülüb. Münaqişənin həlli üçün ATƏT-in Minsk Qrupu yaradılıb, danışıqların aparılması üçün müəyyən addımlar atılıb, Rusiyanın təşəbbüsü ilə Kazan prinsipləri qəbul edilib. Özündə kompromis prinsipləri nəzərdə tutan Kazan prinsipinə görə, Ermənistan Azərbaycana işğal olunmuş 7 ətraf rayonu geri qaytarır. Azərbaycan Ermənistan və Dağlıq Qarabağ ətrafından iqtisadi blokadanı aradan qaldırır, daha sonra Azərbaycan Dağlıq Qarabağa müvəqqəti status verir, orada hərbçilər çıxarılır. Hazırda Kazan psinsipləri ətrafında danışıqlar aparılır".


Sergey Markov


Qabil Hüseynli

Sergey Markovun danışıqların Kazan prinsipləri ətrafında aparıldığını açıqlamasının arxasında ciddi məlumatın dayandığı, yoxsa ehtimal olaraq səslənən fikir olduğu maraq doğurub.

Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, 2011-ci ildə Azərbaycan və Ermənistan prezidentlərinin Kazan görüşündən əvvəl razılaşdırılmış prinsiplərin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi yolunda əsas kimi götürülə biləcəyi qeyd olunmuşdu: "Həmin sənədə əsasən, əvvəlcə tənzimlənmənin əsas prinsipləri imzalanmalı, daha sonra isə Rusiya, ABŞ və Fransanın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan sülh sazişi üzərində işə başlamalıdırlar. Kazan prinsipləri adlı sənəddə nəzərdə tutulurdu ki, ermənі qoşunları Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş 7 rayonun beşindən çıxmalıdır. Bunun ardınca bölgədə təhlükəsizliyin qorunması beynəlxalq sülhməramlı qüvvələrə həvalə oluna bilər. Laçın rayonunda isə Ermənistanla Qarabağı birləşdirilən dəhliz yaradılır. Dağlıq Qarabağa keçici status verilməsi və referendum kimi məsələlər də həmin prinsilərdə əksini tapırdı. Sənəddə qeyd olunurdu ki, Dağlıq Qarabağın hüquqi statusu isə bir neçə ildən sonra referendum yolu ilə müəyyənləşdirilməlidir, bir şərtlə ki, köçkünlər öz yurdlarına qayıtsınlar. Bu sənəddə daha bir müddəa isə Bakı və İrəvanın mübahisələrin həlli üçün güc tətbiqindən hüquqi öhdəlik şəklində imtina etmələridir. Kazan prinsiplərində faktiki olaraq Laçın və Kəlbəcər rayonlarının birinci mərhələdə azad olunması məsələsi qoyulmurdu. Ermənilər ən çox Laçın və Kəlbəcər rayonları üzərində israr edirlər. Sonradan Kazan prinsiplərinin adını dəyişdirib gah "Medvedev planı", gah "Lavrov planı" qoydular. Ancaq mahiyyət dəyişmədi".

Politoloq vurğuladı ki, Sergey Markovun nəyə əsaslanıb o cür açıqlama verməsi maraq doğurur: "Çünki faktiki olaraq xeyli vaxtdır Qarabağ danışıqları sanki dalana dirənib. Hazırda ermənilərdə əhval-ruhiyyə çox radikaldır. Onların mövqeyi danışıqlar prosesini demək olar ki, dayandırıb. Ermənilər artıq nəinki "Kazan prinsipləri" əsasında beş rayonun qaytarılmasına qarşıdırlar, hətta bir qarış da olsun ərazinin geri qaytarılmasına razı olmadıqlarını nümayiş etdirirlər. Belə bir vəziyyət ortada olduğu bir zamanda Markovun danışıqların Kazan prinsipləri əsasında aparıldığını deməsi suallar yaradır və inandırıcı görünmür. Bu saat danışıqlar prosesində ortaya qoyulmuş start nöqtəsi sayıla biləcək elə bir ciddi şey yoxdur. Danışıqlar dalana dirənmiş kimi görünür. Ermənistan hakimiyyəti kompromisə zərrə qədər də yer qoymur ki, hətta danışıqlar olsa belə, hansısa həll planı masaya qoyulub müzakirə edilsin. Qarşıda Nyu-Yorkda Azərbaycan və Ermənistan tərəfinin görüşünün keçirilməsi nəzərdə tutulur. Bu görüş keçirilsə də Ermənistanın indiki əhval-ruhiyyəsi ortada olduğu bir vaxtda danışıqlarda irəliyə doğru hansas addımın atılacağını gözləmək mümkün deyil".

Politoloq onu da dedi ki, danışıqlar dalana dirəndikcə, təmas xəttində atəşkəs pozulması hallarının artması, vəziyyətin müharibəni alovlandırmasına qədər gərginləşməsi ehtimalı artır: "Son zamanlar isə Ermənistanın baş naziri Nikol Paşinyanın təmas xəttinə tam nəzarət edə bilmədiyi, cəbhə xəttinə Paşinyandan çox Dağlıq Qarabağdakı rejimin və Ermənistandakı Qarabağ klanının liderlərinin daha çox nəzarət etdiyi mənzərəsi yaranıb. Bu cür vəziyyətin meydana çıxması da müharibənin başlanması ehtimalını artırır".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Rusiya-Türkiyə yaxınlaşması Qarabağ məsələsinin həllini niyə yaxınlaşdırmır - səbəblər

## Ekspert: "Moskva Ankaranın regionda əsas söz sahibi olacağından ehtiyatlanır..."



**Türkiyə-Rusiya yaxınlaşması strateji müttəfiqlik münasibətləri səviyyəsinə qədər irəliləməkdədir. Artıq bir neçə ildir bu proses gedir. Hətta Türkiyə Rusiyaya görə ən böyük müttəfiqi olan ABŞ-la münasibətlərin korlanmasını belə göz önünə alıb. Bəs nədən Rusiya-Türkiyə münasibətlərinin bu qədər yaxınlaşması Dağlıq Qarabağ probleminin həllinə təsir göstərmir? Gələcəkdə təsir göstərməsi ehtimalı varmı?**

Politoloq Məhəmməd Əsədullazadə "Yeni Müsavat"a bildirdi ki, bunun bir sıra səbəbləri var: "Əvvəla, Türkiyə-Rusiya strateji yaxınlaşması əsasən Yaxın Şərqdə baş verən proseslərlə bağlıdır. ABŞ-la Türkiyə arasında müttəfiqliyə baxmayaraq iki ölkə arasında ciddi siyasi böhran yaşanır. 2003-cü ildə İraq müharibəsində Ankaranın Amerika ordusunu şimali İraqa keçirməyə öz ərazisindən icazə verməməsi ilə iki ölkə arasında başlanan və davam edən böhranın əsası qoyuldu. Vaşinqton tərəfindən Ankaraya soyuq münasibət sərgilənməyə başlandı. Rusiya o zamandan bəri Türkiyəni Qərbdən qoparmaq xəttini tutub. Baş verənlər fonunda Türkiyənin geri çəkilməməsi öz siyasətini prioritet şəkildə inkişaf etdirməsi Vaşinqtonu ciddi narahat edirdi. Bundan əlavə, Suriya müharibəsində də iki NATO ölkəsini üz-üzə qoydu. İlk əvvəllər birlikdə koalisiyada təmsil olunsalar da, ABŞ-ın PKK-nın Suriya qolu YPG-yə dəstək verməsi, iki ölkə arasında FETÖ problemi problemləri yeni inkişaf mərhələsinə yaxınlaşdırdı. Bütün bunlar isə Rusiyanın işinə yarayırdı. Ankara Yaxın Şərqdə yeni strateji tərəfdaş olaraq Rusiya ilə hərəkət etməyə başladı. Çünki Rusiya və Türkiyənin yaxın perspektivdə maraqları üst-üstə düşürdü. Moskvanın marağında Türkiyəni NATO -dan qoparmaq və öz orbitinə çəkməkdir. Hazırda iki ölkə arasında münasibətlər müttəfiqlik səviyyəsinə qalxıb. Rusiyanın Türkiyədə Atom Elektrik Stansiyasını tikməsi və hərbi-texniki əməkdaşlıq barədə sazişlər bağlaması, Kremlin 2016-cı ildə hərbi çevriliş cəhdində Ankaranın yanında olması əlaqələrə yeni dinamizm gətirdi. Hesab edirəm ki, Putinin əsas planı Türkiyəni Qərb oxundan çıxarıb Rusiya-Çin-İran oxuna cəlb etməkdir. Prinsipcə, buna nail olub. Türkiyə-Rusiya yaxınlaşması Cənubi Qafqaza da təsirsiz ötüşmür. Bu regionu özünün "arxa bağçası" hesab edən Rusiyanın maraqlarına qarşı direniş göstərib müəyyən təsirə malik olan ölkə məhz Türkiyədir. Rusiya isə Türkiyəni bu bölgəyə nüfuz etməkdən, bu bölgədəki münaqişələrə hər hansı şəkildə müdaxilə etməkdən uzaq tutmağa çalışır".

Politoloq qeyd etdi ki, Türkiyə Dağlıq Qarabağ məsələsinin ədalətli həlli üçün zaman-zaman cəhdlər edib, Rusiya ilə münasibətlərin yaxınlaşmasından da istifadə edib müəyyən cəhdlər edildi: "Lakin Rusiyanın maraqları bu cür cəhdlərin uğurlu nəticə verməsinə əngəl olur. Məhz Türkiyə rəhbərliyi dəfələrlə Rusiya rəhbərliyi ilə Qarabağ danışıqlarını aparıb. Moskva isə Ankaranın regionda əsas söz sahibi olacağından ehtiyatlanır və Dağlıq Qarabağ məsələsinin Türkiyənin iştirakı ilə həllini istəmir. Buna baxmayaraq Anakara yenə təşəbbüs göstərir və bu münaqişəni Moskva ilə müzakirə edir. Son iki ildir Rusiya rəhbərliyi çalışır ki, Ankaranı proseslərdən kənarda tutsun. Qismən buna nail olub. Hesab edirəm ki, burada Rusiyanın xarici işlər naziri Sergey Lavrovun da "xidməti" var. Lavrov Dağlıq Qarabağ prosesində Türkiyənin iştirakının əleyhinədir. Göründüyü kimi, rus-erməni birliyi Qarabağ məsələsində yekdil olaraq Türk-Azərbaycan birliyinə qarşı birgə fəaliyyət göstərir. Fikrimcə, Ankara ilə Moskva arasında sıx strateji tərəfdaşlığa baxmayaraq Rusiya Qarabağ məsləsində Türkiyə ilə birgə çalışmayacaq".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019

# Bakının taksi sistemində xaos: müştərilərin başına nələr gəlmir?

## "189" və "9933" paytaxt sakinlərində narazılıq yaradır; **Mirvari Qəhrəmanlı:** "Deyir, naviqatorum belə göstərir, sən evinin adresini bilmirsən..."

**Bakıda yerindən duran taksi sürücüsü işləyir. Şəhərin az qala yarısı "taksovatlıq" eləyir. Paytaxtda taksi şirkətlərinin çoxalması, onlayn sifariş xidmətlərinin artması ənənəvi taksi biznesini sıradan çıxarmaqdadır. İndi içkili olan "ayıq sürücü"yə arxayındır, gecə metroya marşruta çata bilməyən istənilən saatda taksi şirkətlərindən birinə zəng edərək sifariş verəcəyinə əmindir.**

Çünki Bakıda dövlət qulluğunda işləyən də, hansısa firmada vəzifə tutan da gecələr benzin pulunu çıxarmaq üçün evdə boş oturmur, hansısa şirkətlə əməkdaşlıq edərək müştəri daşıyır. Ona görə taksi sistemində qeyri-peşəkarlıq, nizamsızlıq, nasaz maşınlar, bir xaos hökm sürməkdədir. Əksəriyyəti heç taksi fəaliyyəti göstərmək üçün fərqlənmə nişanı almır. Kimisi yolu tanımır, kimisi ünvanı qarışdırır, kimisinin avtomobili səliqəsiz, zir-zibil içindədir və s. ilaxır.

**Hüquq müdafiəçisi: "Dirəşdi ki, sənin evin elə buradır..."**

Elə bu günlərdə hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı üzləşdiyi absurd əhvalatı feysbuk hesabında nəql eləmişdi. Onun sözlərinə görə, "189" taksi xidmətindən daha istifadə etməməyi düşünür: "189" taksi sifarişi vermişdim. Ağ rəngli, "Opel Astra" markalı, 409 nömrəli maşın gəlmişdi. Evə çataçatda başqa səmtə yönəltdi. Deyir, mənim naviqatorum belə göstərir, sən evinin adresini bilmirsən. Bu adama başa salmağa çalışdım ki, evimizi tanıyıram, amma həyasızcasına bir binanın qabağında saxladı. Dirəşdi ki, naviqator bu binanı göstərir, sənin evin elə buradır. Bir az da üstümə yerisə idi, inanacaqdım".

Hüquq müdafiəçisi şirkətə şikayət etsə də, faydası olmayıb. Lakin bu da son deyil. Şəhərin taksi bazarında ad qazanmış "189" artıq imicini, reputasiyasını itirməkdədir. Son dövrlərdə şirkətin çoxlu ili köhnə, nasaz, salonu səliqə-sahmansız maşınlarına rast gəlinir. Bu da müştərilərdə narazılıq yaradır. Onlar məhz bu xidməti ona görə seçirdilər ki, avtomobilləri təmiz, yeni, sürücüləri peşəkardır, yolları yaxşı tanıyırlar.

Bir müddət əvvəl maliyyə saytı olan fins.az-ın apardığı sorğu da ən çox şikayətin "189" taksi xidmətindən olduğunu üzə çıxarmışdı. "Reklamları güclü oldu, amma müştəriləri artandan sonra tamamilə pisləşdi. Vaxtında gəlmirlər, qiymətlər uyğun deyil. Ən əsası sınıq-salxaq maşınları çoxalıb. Adam elə bil at arabasında gedir. Mən son vaxtlar başqa xidmətlərə üstünlük verirəm", - deyə söhbətləşdiyimiz şəhər sakinlərindən biri Nihad belə deyir.

Ən pisi odur ki, gecikmə halları barədə operator tərəfindən müştəriyə əvvəlcədən xəbərdarlıq edilmir. Müştərilər dəfələrlə xidmətin operatorlarına müraciət edərək onlar öz şikayətlərini çatdırsa da, nədənsə buna məhəl qoyan yoxdur.









**Yolları tanımırlar, gecikirlər...**

Taksi sürücülərinin gedəcəyi ünvanı bilməməsi "189" taksi xidmətində rast gəlinən ən adi problemlərdəndir. Bunun üzərinə şəhər yollarını çox pis bilməyi, sürücülərin qalıq pulu qaytarmaq istəməməsini, hava şəraitinin azacıq pis olduğu hallarda operatora düşə bilməmək kimi problemləri də əlavə etmək olar. Təəssüf ki, müştərilərin şikayətləri "189" taksi xidmətinin rəhbərliyi tərəfindən araşdırılmır. Araşdırılsaydı, yəqin ki, problemlər tez-tez təkrarlanmazdı.

"Müştərilər təyinat yerinə vaxtında çatdırılmır, sürücülər ünvanları və şəhərin yollarını yaxşı tanımır, hava şəraitinin azacıq pisləşməsi operatorlarla əlaqə saxlamağı mümkünsüz edir, taksilər ünvana 1 saat gecikmə ilə gəlir, onda belə taksi xidməti kimə lazımdır?", - deyə paytaxt sakini Kamil şikayətlənir.

Taksi firmaları qəpik siyasəti yürüdürlər. Ona görə artıq şirkətlərin çoxuna inam azalmaqdadır. Bunun psixoloji reallığı belədir ki, 3 manatlıq yol firmanın operatoru tərəfindən 3 manat 60 qəpik hesablanır. Müştəri imtina edə bilmir, razılaşır. O halda müştəri taksidən düşəndə 3 manat 60 qəpik verməyə utanır, yaxud xırda pulu olmur və 4 manat ödəniş etməyə məcbur olur. Bundan əlavə, 4 manat ödəniş edəndə sürücü də qalığı qaytarmır. O zaman ənənəvi taksi ilə 4 manata getməklə, taksi firmasından 3 manat, 60 qəpiyə getməyin fərqi nədir?

**Şirkətlərin "kopeyişnik"liyi - fırıldaq**

Şəhərdə apardığımız sorğu və araşdırmalar zamanı ikinci ən çox şikayət edilən şirkətin "99 33" olduğunu öyrəndik. Hazırda ən çox sifariş edilən *9933 nömrəli "Salam" taksidə bərbad xidmət var. Müştərilər operatora düşə bilmir, maşınlar köhnə, sürücülərin çoxu maşında siqaret çəkir, təhlükəli sürür, yolları yaxşı tanımır, vaxtında sifariş edilən ünvana çatmır, müştəriləri yarım saat gözlədir, hətta bəzi sürücülər müştəri ilə əlaqə saxlayaraq deyilən ərazidən çox uzaqda olduğunu və sifarişdən imtina edilməsini bildirir.

Bu gün müştərilərə qarşı fırıldağın ən analoqsuz variantı qəpik məsələsidir. Bütün şirkətlər bu yolla müştəri aldadırlar. Məsələn, 5 manatlıq yola operator 5 manat 30 qəpik deyir. Bizdə Azərbaycan reallığıdır, müştəri şoferə 30 qəpik verməyə yaxud qalıq istəməyə utanır deyə 6 manat ödəniş edir.

Bakının bir çox istiqamətlərinə sifariş verdikdə, 3 manat 64 qəpik, 4 manat 80 qəpik, 6 manat 40 qəpik və s. məbləğlər deyilir. Bu da ciddi narazılıq yaradır. Çünki nə sürücü qalıq qəpiyi qaytarır, nə müştəri onu verə bilir. Əsasən də *99 33 nömrəli "Salam" taksi, *9111 nömrəli "Ekonom" taksi, *8844 nömrəli "City" taksi, *5000 nömrəli "Ulduz" taksi, habelə "11 77", "21 11" və s. xidmətlər narazılıq yaradırlar.



**Onlayn taksilərdə başdansovdu işə qəbul - Siyahı**

Ona görə "99 33" xidmətinə inam qalmayıb və əksəriyyəti "Taxi fy", "Uber", "85 55" və s. xidmətlərdən yararlanır. Şoferlər də işlərindən narazıdırlar. Deyirlər ki, nə sürücü, nə müştəri təqsirkardır. Bu xidmətdə təkcə qazanan şirkətlərdir. Onların benzini, yağı getmir, oturublar kondisionerli otaqlarda, sifarişləri verirlər, havayı pul girir ciblərinə. Sürücülər isə gecə-gündüz yollarda müştərilərlə üz-göz olur.

"London" taksiləri isə daha çox otellərin qarşısında dayanırlar, xarici müştəriləri daşımağa üstünlük verirlər.

Ümumiyyətlə, Bakıda sürətlə artan taksi xidmətləri təhlükəsizliklə bağlı vəziyyətə diqqət yetirməyi zəruri edir. Sahibkarların açdığı taksi firmalarında işə qəbul o dərəcədə başdansovdu aparılır ki, kimin kim olduğu bilinmir. İstisna hallarda firmalar sürücü işləmək istəyən şəxsdən məhkumluq barədə arayış, tibbi vərəqə tələb edir, maşının texniki sazlığına baxış keçirir.

Onlayn xidmətlər olan "Uber", "Bolt", "Maxim", "Taxi fy" kimi şirkətlərdə isə qeydiyyat elə elektron qaydada aparılır, şəxsiyyət vəsiqəsi, texniki pasportun nömrəsi, maşının 1-2 fotosu, əlaqə nömrəsi kifayət edir, sonra proqram və naviqator mobil telefona yüklənir, vəssalam, taksi şoferisən, sifarişləri götürə bilərsən. Amma şirkət müştərilərin təhlükəsizliyinə zəmanət vermir.

Qeyd edək ki, taksilər 18-ci əsrdə Fransada peyda olub və bunlar muzdla tutulan "taksi insanlar" idi. Arabalı taksilər hələ Qədim Romada mövcud idi. Arabanın üzərində xüsusi "taksometrlər" də quraşdırılmışdı və bu taksometr adi bir çanaq idi və təqribən hər 200 metrdən bir bu çanağa bir daş atılırdı. Taksi xidmətinin haqqı isə mənzil başına çatdıqda çanaqdakı daşların sayına görə təyin edilirdi. Taksi üçün sarı rəng hələ 20-ci əsrin əvvəlində "Yellow Cab" şirkəti tərəfindən seçilmişdi.

Şirkət sırf taksi fəaliyyəti ilə məşğul olması üçün avtomobillər istehsal edirdi. Avtomobillər üçün sarı rəngin seçilməsində səbəb sadə idi. Belə ki, sarı rəng uzaqdan daha aydın görünürdü.

1950-ci illərdə isə taksilər üçün xüsusi xarici fərqləndirici əlamət olan "şahmat löhvəsi" və yaşıl işıq yaradıldı. Bu, taksinin hazırda bol olduğu mənasına gəlirdi. Dünyanın ən bahalı taksisi İngiltərədədir. Bu reytinqdə ikinci pillədə İtaliya, üçüncü pillədə Almaniya qərarlaşıb.

Ən ucuz taksi isə Çindədir və burada taksi sürücülərinin 30%-i qadınlardır. Finlandiyada isə taksi sifarişlərinin demək olar ki, yarısı internet vasitəsilə həyata keçirilir.

Venesiya, Yeni Zellandiya və Hollandiyada isə su taksiləri geniş yayılıb. Hazırda hava taksiləri də populyarlıq qazanmağa başlayıb. Çili isə ən qeyri-adi taksilərə sahibdir. Bu taksi - inəklərdir. Vyetnam da Çilidən geri qalmır və burada getmək istədiyiniz yerə fil üzərində getmək təklif edilir.

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Qarabağ danışıqları təzədən dalanda: sülh perspektivinə iki fərqli baxış

## **Rusiyalı ekspert:** “Danışıqlar Kazan prinsipləri əsasında aparılır”; **azərbaycanlı politoloq:** “Minsk Qrupunun vasitəçiliyinə olan ümidlərimiz illüziyadır”

**Ermənistan işğalçı siyasəti ilə həm özünün, həm də ümumən bölgənin inkişafı üçün əsas əngəl olaraq qalır. Təbii ki, bunun altını ən çox onun özü çəkir. Çünki blokada vəziyyətində olan, əsas qonşuları ilə sərhədləri bağlı, iri regional iqtisadi, energetik və kommunikasiya layihələrindən kənarda qalıb “tullantı” dövlətə çevrilən məhz Ermənistandır.**






Əfsus ki, Ermənistan və onun rəhbərləri, bir-birini əvəz eləsə də, öz xalqının əzab-əziyyətini görsələr də, illüziya ilə yaşayır, nə vaxtsa Azərbaycan torpaqlarının işğalının rəsmiləşdiriləcəyinə ümid edirlər. Söz yox ki, onların bu ümidlə yaşamasında Qərbin və Rusiyanın Dağlıq Qarabağ məsələsinə “ikili standart” yanaşması mühüm rol oynayır. Əslində isə istər Rusiya, istərsə də Qərb ermənilərdən, onların öz qonşularına qarşı əsassız torpaq iddiasından ən əvvəl öz maraqları üçün və məharətlə istifadə edir. Ermənilər isə bunu hələ ki anlamaq istəmirlər.

*****

“Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT qətnamələrinə uyğun şəkildə həll oluna bilər”. Bunu ötən həftəsonu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. Türkiyəli nazir haqlı olaraq qeyd edib ki, Azərbaycan torpaqlarının 20 faizindən çoxu Ermənistan tərəfindən işğal olunsa da, hələ də Azərbaycana qarşı “ikili standartlar” tətbiq olunur.

“30 ildən çoxdur ermənilər tərəfindən qızışdırılan Qarabağ konflikti davam edir. 25 ildən çoxdur Azərbaycan torpaqları erməni qüvvələrinin işğalı altındadır. Ancaq bu müddətdə nə Bakını erməni şərtləri əsasında sülhə məcbur etmək mümkün olub, nə də Dağlıq Qarabağ ermənilərinin beynəlxalq legitimliyinin tanınmasına nail olunub”. Bunu isə “Yeni Müsavat”ın məlumatına görə, politoloq Rasim Musabəyov konflikt ətrafında situasiyanı şərh edərkən deyib.

“Nəticə etibarilə Ermənistan regional əməkdaşlıqdan kənarda qalıb. Bütün iri regional layihələrdən təcrid edilib, sözdə millətçi şüarları dəstəkləyən erməni əhalisi isə reallıqda aparılan siyasətə ayaqları ilə səs verirlər, yəni kütləvi şəkildə sözdə sevdiklərini vətənlərini tərk edirlər. Erməni demoqrafların hesablamalarına görə, Ermənistan əhalisi artıq 5 milyona çatmalı idi, gerçəkdə isə bu rəqəmin heç yarısı qədər də deyil”, - deyə politoloq qeyd edib.

Onun sözlərinə görə, ermənilərdə bir anlığa güzəştə getmək və Azərbaycan torpaqlarını azad eləmək zəruriliyi barədə qarşıq hisslər yaranan kimi növbəti bir Pozner, Monserat Kabalye və ya ABŞ-da və Avstraliyada hansısa ştat, Fransada və ya Argentinada balaca bir şəhər ermənilərə publik dəstək ifadə edir: “Nəticədə ermənilərin arzuları təzədən alovlanır, illüziyalar qalib gəlir və iflasa aparan dalan siyasəti davam edir. Şübhə eləmirəm ki, bu gün xarici havadarlarına qızğın minnətdarlıq izhar edən və valeh olan ermənilər günün birində onlara və özlərinin avantürist liderlərinə lənətlər yağdıracaqlar. Biz isə ardıcıl şəkildə Ermənistana iqtisadi, diplomatik, hərbi və informasiya təzyiqi xəttini davam etdirməliyik. Erməniləri ayrı yolla ağla gətirmək mümkün deyil”.

*****

“BMT TŞ, ATƏT, Avropa Parlamenti dəfələrlə Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu haqda qətnamələr qəbul edib. İndiyədək heç bir ölkə Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayıb”.

“Yeni Müsavat” xəbər verir ki, bu haqda Rusiyadakı Siyasi Tədqiqatlar İnstitutunun rəhbəri Sergey Markov sülh danışıqlarının perspektivindən danışarkən deyib.

Dağlıq Qarabağ münaqişəsini “dondurulmuş” saymağın əleyhinə olduğunu söyləyən politoloq 2016-cı ildə 4 günlük müharibəni xatırladıb və əlavə edib: “Ermənistan təkcə Dağlıq Qarabağı deyil, onun ətrafındakı 7 rayonu da işğal edib, orada etnik təmizləmə aparıb. Konfliktin nizamlanması üçün Minsk Qrupu yaradılıb, danışıqlar aparılması üçün müəyyən addımlar atılıb, Rusiyanın təşəbbüsü ilə Kazan prinsipləri qəbul edilib. Bu prinsiplər belə bir kompromisi nəzərdə tutur: Ermənistan Azərbaycana 7 rayonu qaytarır, Azərbaycan Ermənistan və Dağlıq Qarabağ ətrafında blokadanı götürür, daha sonra Azərbaycan Dağlıq Qarabağa müvəqqəti status verir və oradan erməni qüvvələri çıxarılır. Hazırda danışıqlar bu prinsiplər əsasında davam edir”.

*****

Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov isə hesab edir ki, bu minvalla Ermənistanla sülh anlaşması mümkün olmayacaq. Bu haqda o, Minval.az-a açıqlamasında deyib.

“Azərbaycan real nizamlamaya nail olmaq üçün addımlar atmaqda davam edir. Odur ki, bu gün bir şey aydındır: ermənilərlə - nə ”Qarabağ klanı” ilə, nə də İrəvan erməniləri ilə sülh anlaşması mümkün deyil. İşğal altındakı ərazilərdən erməni işğalçı qüvvələr çıxarılmayınca Qarabağ problemi həll edilməyəcək. Təmas xəttində bizim zabitin qətli sübut edir ki, Minsk Qrupu, həmsədrik institutu, “Madrid prinsipləri”, bütün digər şeylər ictimai şüurda bütünlüklə mənasızlaşır. Və proses davam edir. Bizim ATƏT-in Minsk Qrupu vasitəçiliyinə ümidlərimiz illüziyadan başqa bir şey deyil".

*****

Yaranmış durumda, sözsüz ki, güc faktoru, Azərbaycanın hərbi potensialı və ordusunun döyüş qabiliyyəti heç vaxt olmadığı qədər önəm kəsb edir, önə çıxır. Bakı sülh prosesinə sadiq qalmaqla yanaşı, güc variantını da daim əlinin altında saxlamaq zorundadır. Bu xüsusda Azərbaycanın NATO üzvü qardaş Türkiyə ilə intensivləşən ortaq hərbi təlimləri mühüm önəm daşıyır. Bu həftə Naxçıvanda iki ölkə silahlı qüvvələrinin növbəti, 5 günlük birgə hərbi manevrləri gözlənilir.

Paralel surətdə Azərbaycan öz silahlı qüvvələrini modern silah-sursat və ən müasir döyüş sistemləri ilə komplektləşdirməyə, yerli hərbi sənayesini inkişaf etdirməyə davam edir. Çünki sülh istəyən gərək müharibəyə hazır olsun. Azərbaycan Ordusu torpaqlarımızı azad eləməyə hazırdır. Qalır diplomatiyamızın bunun üçün əlverişli fürsəti hazırlaması...




## Qarabağda keçirilən qanunsuz yarışa Bakıdan sərt reaksiya

**Azərbaycanın işğal olunmuş ərazilərində keçirilən, hər hansı rəsmi futbol assosiasiyası tərəfindən tanınmayan və öz sıralarında qeyri-legitim qurumları bir araya gətirən “konfederasiya”nın təşkil etdiyi oyunlar futbolun parodiyasından başqa bir şey deyil. Bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ ərazisində üzdəniraq “müstəqil futbol assosiasiyaları konfederasiyası”nın (conifa) futbol oyununun keçirilməsi ilə bağlı suala cavabında deyib.**

“Mən bu məsələyə əhəmiyyət verib çox danışmaqla onun təşviqinə xidmət etmək istəmirəm. Bildiyiniz kimi, ölkəmizin Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icması bununla bağlı etirazını bildirib. Bu oyunlarda iştirak edənlər sırasında olan Laplandiyanın adı mənə ”qarlar ölkəsi” ilə bağlı nağılları xatırladır. Əslində elə erməni psixologiyası nağıllar və əfsanələr üzərində qurulub və onlar buna inanırlar", - deyə Xarici İşlər Nazirliyinin mətbuat katibi əlavə edib.

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019



# Köçəryanın gəlini, "erməni zurnası" və ABŞ-a atılan güllə...

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Təəssüf ki, ötən yazılarımızdakı ehtimallar doğruldu. Yazmışdıq ki, nazirlərin Vaşinqton görüşü ərəfəsində Qarabağda növbəti təxribat ola bilər: baş verdi. ABŞ danışıqlara 15 ildən sonra (!) 2016-cı ildə ev sahibliyi etmək istəyəndə də aprel döyüşləri başlamışdı. Bu dəfə həmsədrləri İrəvan, Xankəndidən sonra Bakıya gəldilər ki, ABŞ-ın paytaxtındakı görüşə hazırlıqları müzakirə etsinlər, tabor komandirimiz, mayor Aqil Ömərov snayperlə qətlə yetirildi.**

Zabitimizə atılan güllə həm də həmsədrlərin təşəbbüsünə, daha çox da ABŞ-a atılmış sayılmalıdır. Bölgədə maraqları olan, təşəbbüsü əldən vermək istəməyən digər qüvvələr Vaşinqtonun Qarabağ məsələsində yaxından iştirakını qəti şəkildə istəmir. Xüsusilə də Rusiya ABŞ-la arasınada soyuq müharibə yaşandığı bu dönəmdə təşəbbüsün əldə çıxacağından ehtiyatlanır. İran məsələsinin aktual olduğu bir zamanda regiondakı digər münaqişə bölgəsinə "yad" birisinin yaxınlaşmasını sinirə bilmir bölgədə hegemonluq etmək istəyən qüvvə...

Bu mənada həmsədrlərin Azərbaycan zabitinin şəhid olmasına verdiyi reaksiya adekvat sayıla bilməz. Əgər açılan güllə diplomatların bölgəyə səfərini "beş qəpiklik" edibsə, onda bu nə "narahatıq"-bazlıqdır?! Belə nağılları çox eşitmişik. Atəşi açan işğaldakı Ağdam ərazisində marığa yatmış erməni əsgər olub, onda bu nə bərabərlik işarəsidir?!

İstisna deyil ki, bu bəyanatda da şimal qonşumuzun təmsilçisinin iradəsi öz sözünü deyib. Məntiqlə Vaşinqton görüşünün pozulmasına yönəlik təxribata görə Ağ Ev-dən qınaq gəlməliydi. Gəlmədi. Bütün məsələlərdə bir-biri ilə savaşırlar, təkcə Qarabağ məsələsində mövqeləri yekdildir.

Keçən mayda ordumuz Naxçıvan istiqamətində strateji mövqeləri azad edəndə həmsədrlər açıq şəkildə Azərbaycanı ittiham etdilər. İndi necə olur Azərbaycanın peşəkar zabiti, tabor komandiri snayperlə vurulur, amma snayperlərin yığışdırılması üçün illərdir yaxa yırtan mərkəzlərin səsi eşidilmir? Deməli, bəzi dairələrə də sərf edir danışıqların dalana dirənməsi. Ermənistanın da arzu-istəyi budur. Sabah iddia edəcəklər ki, Dağlıq Qarabağda 30 illik bir nəsil böyüyüb, onların Azərbaycanın tərkibində yaşaması mümkün deyil. Əslində ədalətsiz dünyaya da belə bəhanələr çox lazımdır.

Budur, ölkəmizin işğal olunmuş ərazilərində "müstəqil futbol assosiasiyaları konfederasiyası"nin (ConİFA) futbol oyunları keçirilir. Azərbaycan tərəf bəyan etdi ki, hər hansı rəsmi futbol assosiasiyası tərəfindən tanınmayan və öz sıralarında qeyri-legitim qurumları bir araya gətirən qeyd etdiyiniz oyunlar futbolun parodiyasından başqa bir şey deyil. Bəs Qarabağda gərginlik yaranmasından "narahat" olan dairələr hardadır, niyə etirazları eşidilmir?

İstisna deyil ki, həmsədrlərin bölgəyə budəfəki səfəri həm də futbol "yarışı"qabağı gərginliyin qarşısını almağa xidmət edirdi. Tamamilə mümkündür ki, Qarabağ separatçılarını himayə edən dairələr bu futbol oyunbazlığının baş tutması üçün bir araya gəlmişdilər.

Təsəvvür edin, Azərbaycan UEFA-nın final oyununa ev sahibliyi etdi, ermənilər və ermənipərəstlər eyni işarə ilə ölkəmizə qarşı əks-təbliğata başladılar, çamur atdılar, ən alçaq vasitələrlə Azərbaycanı qaralamağa çalışdılar. Mxitaryan şousu belə işə yaramadı. Ancaq budur, Mxitaryanın dəfələrlə qanunsuz səfər etdiyi Dağlıq Qarabağda, elə onun özünün yetişdirdiyi futbolçuların iştirakı ilə "çempionat" keçirilir, lakin heç yerdən etirazlar eşidilmir. Kimsə deyə bilər ki, Qarabağdakı bu "çempionat" parodiyasına rəsmi münasibət bildirilməsi onun çəkisini artıra bilər. Amma yox, nədən sülh prosesinə vurulan davamlı zərbələrə etirazlar eşidilmir?

Deyək ki, Robert Köçəryanın gəlini Siranuş Arutyunyanın Qarabağdakı futbol "çempionat"ının açılışında oxumasına, ordakı atəşfəşanlığa boş verdik. Lap elə erməni mediasının "çempionatda iştirak üçün gələn qonaqları erməni xalq musiqi aləti zurna ilə qarşıladıq" kimi sərsəmləməyə də məhəl qoymayıb, yalansa "zurna girsin gözünüzə" dedik, amma...

Həmsədrlər ölkələrinə döndüyü gün Ermənistan ordusunun Ağdamdakı bölmələri hərbi təlimlərə başladı, "Tiqranakert poliqonu" adlandırdıqları torpaqlarımızı mərmilərlə şumladılar, bəs, buna nə deyirsiniz?!

Gözləyirəm ki, həmsədrlər Azərbaycan ordusunun cavab atəşi ilə məhv etdiyi erməni hərbçisinə görə narahat olduqlarını da deyəcəklər. Utanmasalar, edərlər... Son hadisələr bir daha deyir ki, nicat Azərbaycanın özünə qalıb. Onu bu savaşda qalib edəcək bir qüvvə var - ordumuz!

# Ərdoğan-Tramp arasında tarixi danışıq - iki lider görüşür

## Toğrul İsmayıl: "ABŞ Türkiyə üzərində diktə etməyə çalışır"

**Türkiyə cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla Amerika prezidenti Donald Tramp arasında telefon danışığı olub. Ərdoğan amerikalı həmkarına S-400 müdafiə sistemi ilə bağlı ortaq iş qrupu qurulması təklifini təkrar dilə gətirib. Telefon söhbəti zamanı Yaponiyada təşkil ediləcək G 20 zirvə toplantısında ikili görüşlə bağlı da razılığa gəlinib.**



Bundan əlavə, Türkiyə başçısı polad sektoruna əlavə tarifi aradan qaldırdığı üçün amerikalı həmkarına minnətdarlığını bildirib və bu qərarın iki ölkə arasında 75 milyard dollarlıq ikili ticarət hədəfinə çatılmasına töhfə verəcəyini vurğulayıb.

İki ölkə rəhbərinin telefon danışığı geniş müzakirələrə səbəb olub. Amerika-Türkiyə münasibətlərindəki buzların getdikcə əridiyi bildirilir. Xüsusilə, rəsmi Ankaranın Rusiyadan alacağı S-400-lərlə bağlı Amerika və müttəfiqi NATO ölkələri ilə yaşadığı gərginliyin getdikcə aradan qaldırıldığı vurğulanır, bir növ qardaş ölkənin bu məsələdəki qətiyyətli mövqeyinin töhfə verdiyi qeyd olunur. Ərdoğan-Tramp görüşündə isə bir çox məsələlərin həll olunacağına ümid edilir.

Türkiyədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayıl telefon danışığını "Yeni Müsavat"a bu cür şərh etdi: "Türkiyə heç bir halda S-400-ləri almaqdan vaz keçməyəcəyini dəfələrlə bəyan edib. Amerika da buna öz reaksiyasını sərgiləyib və israrını davam etdirib. Amma dəfələrlə dediyim kimi, əgər ABŞ bir şeyin üzərində bu qədər israr edirsə, bunun alternativini təklif etməsi lazımdır. Bunu etmir və Türkiyənin müstəqil bir dövlət kimi digər bir ölkədən silah almasına təzyiq edir. Rəsmi Ankara bu silahları almazsa, hansı zərərləri çəkəcəyi məlumdur. Amerika isə bu məsələni ümumiyyətlə, gündəmə gətirmir. Qardaş ölkə də daha çox zərər görməməsi üçün israrını davam etdirir. Bu səbəbdən ortaq komissiya yaradılmasını təklif edir. Telefon danışıqları və ya görüşlər Türkiyənin məsələdən vaz keçdiyi anlamına gəlməz. Ankara maksimum dərəcədə Amerika ilə münasibətlərini isti tutmağa çalışır. Telefon danışıqları və rəsmi görüşlər məhz bunun göstəricisidir".

Politoloq Ərdoğan-Tramp görüşündə hansı məsələlərin müzakirə ediləcəyi barədə təxminlərini də bölüşdü: "Bölgədə problemlər, ikili münasibətlər, ortada olan krizis məsələləri görüşün əsas gündəmində olacaq. Amerikanın Çin, Rusiya, İran kimi dövlətlərə qarşı münasibətləri ortadadır. Hətta bir zamanlar müttəfiqi olduğu Hindistana qarşı sərt mövqeləri günümüzdə Amerikanın politkasının nə qədər dəyişdiyini göstərir. ABŞ super dövlət olmağının əsas funksiyasını Tramp dönəmində hər kəsə meydan oxuduğunu göstərməklə yerinə yetirməyə çalışır. Bunu hətta Avropa Birliyi və NATO ölkələri üzərində də nümayiş etdirir. Biz Türkiyə üzərində daha çox dayandığımız üçün düşünürük ki, yalnız ABŞ-Türkiyə münasibətlərində ciddi gərginlik var. Bütövlükdə götürdükdə, görürük ki, Türkiyədə Amerikanın başının çəkdiyi bir gərginlik ortamı var, bu bir gerçəkdir. İkili görüşdə Türkiyə-Amerika münasibətlərində yaranan gərginlik, bu gərginliyin qısa zamanda aradan qaldırılması məsələsi daha çox müzakirə mövzusu olacaq. Açığı, soyuq münasibətlərin qısa zamanda aradan qaldırılması real görünmür. Çünki Amerikanın Yaxın Şərq siyasəti ilə Türkiyəninki fərqlidir. Türkiyə də bölgədə güc olmaq yolunda hərəkət etməyə çalışır. Amma Amerikanın bunun əksinə bölgədə dəstək verdiyi ölkələr fərqlidir. Ona görə problemlər davamlı olacaq. Bunlar bu gün baş verən hadisələrdir. Yaxın keçmişdə belə nümunələr az olmayıb. Amerikanın zaman-zaman Türkiyəyə qarşı təpkilərinin dəfələrlə şahidi olmuşuq".

Müsahibimiz Türkiyəyə qarşı tətbiq edilən sanksiyaların tamamilə aradan qaldırılacağı yönündə deyilənlərə də toxundu: "Bu, belə deyil. Doğrudur, sanksiyalar aradan qaldırıldı. Amma bu, ilk dönəmlərdə yaranan krizisdə tətbiq edilən sanksiyalar idi. Amma bununla problemin aradan qaldırıldığını söyləmək çox çətindir. Amerika kimi bir ölkənin NATO-dakı müttəfiqi Türkiyəyə qarşı sanksiyalar tətbiq etməsi çox üzücü və düşündürücüdür. Bəzi məsələlərdə belə qərarlar verməmək mümkün idi. Türkiyə Amerika üçün önəmli bir partnyordur. Belə olmasına baxmayaraq, ABŞ Türkiyə üzərində diktə etməyə çalışır. Nəticədə proseslər bu şəklə gəlib çıxır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Ruhanidən ABŞ-a "yaşıl işıq"



**"Düşmən keçən ilə qədər hədəfinin İram rejimi olduğunu deyirdi. Bu gün isə açıq şəkildə rejimlə işi olmadığını söyləyir. Düşmən bir neçə ay əvvələdək dünyanın ən böyük ordusuna malik olduğunu və istədiyi vaxt İran Silahlı Qüvvələrini məğlub edəcəyini iddia edirdi, bu gün isə savaş istəmədiklərini açıqlayır".**

Bu sözləri İran prezidenti Həsən Ruhani idmançılarla görüşündə deyib (teleqraf.com). Həsən Ruhani ABŞ-la yenidən müzakirələrin mümkünlüyünə də toxunub. Onun sözlərinə görə, Birləşmiş Ştatlar sanksiyalarla İranı təslim olmağa məcbur edəcəyini zənn etsə də, xalq çətinliklərə qarşı mübarizə aparır. "Əgər beynəlxalq qərarlar çərçivəsində və sayğı ilə müzakirə masasında əyləşərlərsə, biz müzakirə və məntiq əhliyik", - deyə İran prezidenti vurğulayıb.

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019

# Bakıdakı hosteldə bir gün

## Menecer: "Son zamanlar yerli vətəndaşlar da hostelə müraciət edirlər"

**Təxminən 10 ilə yaxındır ki, Avropa və Asiyanın bir çox ölkələrində hostellər geniş yayılmağa başlayıb. Azərbaycanda isə hostel anlayışı bir neçə il öncə yaranmağa başlayıb və əksəriyyət tərəfindən bir o qədər də birmənalı qarşılanmır.**

Qeyd edək ki, ingiliscədən mənası "yataqxana" kimi tərcümə olunan hostellər qonaqları qısa və yaxud uzun müddətli yaşayış ilə təmin edən bir sistemdir. Hostellər adətən otellər kimi bir sıra imkanlara malik olmayan yataqxana hesab olunur. Əsasən aztəminatlı turistlər, hansı ki, ya avtobusla, qatarla və yaxud şəxsi maşınla ölkələrə səfərlər edir, daha çox onlar hostellərə müraciət edir. Təbii ki, hostellərdə çox nadir hallarda varlı ərəbə rast gəlmək olar.

Son bir neçə ildə Azərbaycana turist axını çoxaldığından hostellər də yaranmağa başladı. Yaranan ilk hostellərə qarşı cəmiyyətimizdə necə sərt münasibətin olduğunu da müşahidə etmişdik. Hətta bir sıra rəsmilər hostellərin Azərbaycan milli-mentalitetinə uyğun olmadığını, onların bağlanılmasını istəmişdi. Məsələn, son bir faktı qeyd etmək yerinə düşər. Ötən ay deputat Tahir Kərimli parlamentdə yaşadığı ərazidə yerləşən hosteldən şikayətlənmişdi. O qeyd etmişdi ki, hostel yaşayış binasında salınıb və bu da oradakı sakinlərin rahatlığını pozub: "Mən yaşadığım ərazidə binanı hostelə, mehmanxanaya çeviriblər. Bir balaca abır-həyamız var. İndi biz hamımız oradan köçüb getmək istəyirik". Deputat həmin hosteli "insan alveri yuvası" adlandırmışdı.

Bunun ardınca isə deputat Araz Əlizadə də hostellərlə bağlı məsələyə yenidən baxılmalı olduğunu bildirmişdi: "Rusiyada çoxmərtəbəli binalarda hostellərin yaradılmasına icazə vermişdilər. Ancaq gördülər ki, bu, mümkün deyil. Ona görə də Rusiya Dövlət Duması qərar verdi ki, hostellər yalnız birinci mərtəbədə yaradıla bilər, bir şərtlə ki, oraya başqa tərəfdən giriş-çıxış olsun. Məncə, biz də bu təcrübədən istifadə etməliyik".

Araşdıranda isə məlum olur ki, hazırda Bakıdakı hostellərin bir neçəsi elə məmurların mənzilləridir. Həmin hostellərin bəzilərinin giriş-çıxışı yerləşdiyi binalarınkı ilə eyni, bəziləri isə ayrıdır. Statistik məlumata görə, hazırda paytaxt Bakıda 40-a yaxın hostel fəaliyyət göstərir və əksəriyyəti də mərkəzdə yerləşir. Onların qiymətləri şəraitə və məkanına görə 8-20 manat arasında dəyişir.

Musavat.com-un əməkdaşı kimi Bakının mərkəzində yerləşən hostellərin birində, "My hostel Baku"da olub, buradakı vəziyyəti, qalmaq şəraiti və şərtləri ilə yaxından tanış olmağa çalışdıq. Bizi qarşılayan hostelin meneceri Orxan Salmanov oldu.









Menecer qeyd etdi ki, adı çəkilən hostel artıq 4 ilə yaxındır ki, fəaliyyət göstərir və Bakıda açılan ilk hostellərdən biridir: "İlk günlərdən hostelimizdə şərait yaxşı qurulduğundan, gələn qonaqlarımızın sayı çoxdur. Siz əgər bir neçə gün əvvəl, Avropa Liqasının final oyunu zamanı hostelimizə gəlsəydiniz, şahidi olardınız ki, nə qədər qonaqlarımız olur. Həmin gün çox sayda olan millətlərdən turistlər gəlmişdi. Türkmənistan, Özbəkistan, hətta Tailandın özündən belə 8-9 nəfərlik qrup gəlmişdi".

Menecer hələ də ölkəmizdə hostellərə münasibətin birmənalı olmamasından təəssüfləndiyini dedi: "Bildiyiniz kimi cəmiyyətimizdə otellərə qarı bir antisimpatiya var. Hostelə münasibət isə daha sərtdir. Bəziləri düşünür ki, əgər 4-5 nəfər əgər bir yerdə qalarsa, bu mentalitetə uyğun deyil. Bakıdakı hostellərdə, eləcə də bizdə qadınlar ayrı, kişilər ayrı otaqlarda qalır. Lakin bu xarici vətəndaşlar üçün keçərli deyil. Məsələn, ola birlə ki, xarici vətəndaş olan qadın kişilər olan otaqda qalmağa razılıq versin. Bu, bizim üçün qəribə görünsə də, Avropa ölkələrində adi haldır. Şəxsən mən Avropanın bəzi ölkələrində, eləcə də Portuqaliyada yaşadığım zaman hostellərə müraciət edirdim. Orada bəzən qadınlar, kişilər eyni otaqda qalırdı. Çünki hostel daha çox gecələmək üçün lazım olur. Gün ərzində işinə gedirsən, axşam isə yatmaq üçün hostelə gəlirsən. Hostellərin demək olar, əsas mahiyyəti bundan ibarətdir".

Hostelin qiymətləri ilə də maraqlandıq. Menecer qeyd etdi ki, burada qiymət 7-12 manat arasında dəyişir: "Bütün hostellərdə olduğu kimi, bizim hosteldə də qiymət otaq və yatağın sayına görə dəyişir. Yeni otaq sayı çox olarsa, qiymət daha da ucuz olur. Hazırda 5 otaq, iki ümumi hamam və tualet, mətbəximiz var. "Güzgülü otaq" adlandırdığımız otaqda 12 yataq var. Buna görə də qiymət 7 manatdan başlayır. Bir otağımız var ki, orada iki yataq var, onun qiyməti isə 12 manatdır. Digər bir otağımız isə ayrıcadır, hansı ki, ailəsi ilə birlikdə gələnlər və yaxud tək qalmaq istəyənlər üçün nəzərdə tutulub. Ümumiyyətlə isə, müştərilərimizə çox endirimlər edirik. Çalışırıq ki, onların cibinə uyğun davranaq və bizdən razı qalsınlar. Çox sevindirici haldır ki, hostelimizə müraciət edənlər əvvəlcə 2-3 günlük qalmaq istədiklərini desələr də sonradan uzun müddətli qalırlar. Təbii ki, bu da hostelimizdə yaradılmış şəraitlə bağlıdır. Dünyanın hər yerində hostellərdə ilk amil xidmətlə bağlıdır. Məsələn, biz çalışırıq ki, hər bir müştəriyə ailə üzvümüz kimi yanaşaq. Onlara şəhərin mərkəzinə necə getmək lazım olduğunu, ucuz restoranın harada ola biləcəyəni və sairə bu kimi məlumatlar veririk ki, şəhərimizi rahat gəzə bilsinlər. Həmçinin hostelin təmiz və səliqəli saxlanılması üçün daim nəzarət edirik. Bunun nəticəsidir ki, qonaqlarımız sonradan öz ölkələrində geri döndükdə belə uzun müddət bizimlə əlaqə saxlayır, öz təşəkkürlərini bildirirlər".

Orxan Salmanov bizi hostelin mətbəxi ilə də tanış etdi. Onun sözlərinə görə, elə ən maraqlı anlar turistlərin bir yerdə yemək bişirməsi zamanı baş verir: "Burada qonaqlarımızın hər biri özü ərzaq alaraq yemək bişirə bilməsi üçün şərait yaratmışıq, çörək və yemək bişirmək üçün soba qoymuşuq. Təsəvvür edin, 3-4 millətin nümayəndəsi eyni vaxtda müxtəlif yeməklər bişirir və bu zaman spesifik qoxu yaranır (gülümsəyir). Bu yeməklərə vurulan ədviyyatlar və sairə ilə bağlı olur. Onlar birlikdə yemək bişirir, birlikdə süfrə arxasına keçir, söhbətləşir, təəssüratlarını bölüşürlər. Bu, çox gözəldir. Ümumiyyətlə, hostellərin otellərdən fərqi bundan ibarətdir ki, burada müxtəlif mədəniyyətlər bir araya gəlir, turistlər bir-biri ilə dostlaşır, müxtəlif mətbəxlərlə tanış olurlar. Şəxsən mən burada demək olar ki, dünyanın bir çox ölkələrinin mətbəxindən dadmışam (gülümsəyir). Bura o qədər öyrəşmişik ki, bəzən heç evə getmək istəmirik".

Mətbəxdə olduğum zaman artıq Hindistandan olan qonaqlar yemək bişirməklə məşğul idilər. Əməkdaşımız Elçin Əkbərovun tərcüməçilik qabiliyyətindən istifadə edərək öyrəndik ki, hindistanlılar ənənəvi hind, vegeterian yeməyi olan nefulli bişirirlər. Tərkibi kartof, pomidor və müxtəlif hind ədviyyatlarından ibarət olan bu yemək tez və rahat hazırlanır. Nefullu demək olar ki, kartof qızartmasına bənzəyir... Yemək bişirən hindistanlıdan Bakı və hostel barəsində təəssüratlarını da öyrənə bildik. Turist burada yaşamaq onun üçün çox rahat olduğunu dedi: "Bura çox gözəldir, həm də insanları dostcanlıdır".

Hindistana yaxın Nepal ölkəsindən gələn Karan Pun da həm ölkəmizdən, həm də hosteldən razı qaldığını bildirdi: "Mən iki aydır işlə bağlı Bakıya gəlmişəm. Bundan əvvəl Hon-Konqda, Tailandda və digər ölkələrin hostellərində qalmışam. Lakin Bakını və bu hosteli çox sevdim. Hazırda Hindistanda və Nepalda hava çox istidir. Bakıda isə hava mülayim və gözəldir. Gələcəkdə də yay mövsümündə istirahət üçün Bakıya gələcəyimi düşünürəm".

Maraqlıdır ki, qonaqlar arasında həm pakistanlı, həm də hindistanlı qonaqlar da var. "Bəs onların arasında xoşagəlməz, neqativ hallar yaşanırmı?" deyə menecerə sual verdik. Orxan Salmanovun bizə verdiyi cavab bu cür oldu: "Bu çox maraqlı sualdır. Mənim həm hindistanlı, həm də pakistanlı dostlarım var. Onlar burada dostcasına yaşayır, birlikdə süfrəyə oturur, yemək yeyirlər. Dəfələrlə onların dilindən eşitmişik ki, iki dövlət arasında olan Kəşmir münaqişəsi dövlət siyasətinə aiddir. Hətta bildiyiniz kimi, onların dil və mədəniyyətləri, milli-mentalitetləri də demək olar ki, eynidir, sadəcə, arada din fərqi var ki, bu da onlara problem yaratmır. Ancaq səmimi deyim ki, pakistanlılar qarşı tərəfə bir qədər soyuqqanlı, bir qədər də sərt yanaşırlar. Bu da təbiidir, çünki Hindistan Kəşmirin bir hissəsini öz ərazisinə daxil edib. Bu cür münaqişəni biz də yaşayırıq, necə ki, Ermənistan Dağlıq Qarabağı işğal edib. Bir faktı danışmaq istərdim. Bir dəfə Tunisdən olan dostumuz hostelimizdən ayrıldığı zaman ondan soruşdum ki, bundan sonrakı səfəri hansı ölkə olacaq. Bildirdi ki, Ermənistana getmək istəyir. Mən bunu eşidəndə bu, mənə çox pis təsir etdi, tutuldum və tunisli dostum bunu hiss etdi. O, məndən əhvalımın hansı səbəbdən dəyişdiyini soruşdu. Ona Qarabağımız, Ermənistanın onu necə işğal etməsindən, baş verən münaqişədən söz açdım. Və o bu məsələyə çox pis olduğunu, təəssüfləndiyini bildirdi".

Hostel menecerinin dediyinə görə, son zamanlar yerli vətəndaşlar da hostelə müraciət edirlər: "Hazırda qalan qonaqlarımızın yarısı yerli vətəndaşlardır. Onların arasında rayondan Bakıya səfər edənlər, tələbələr, hətta uşaqlı qadın da var. Əgər burada qalmaq onlar üçün rahatdırsa, niyə də olmasın? Hostelimiz yarandığı zamandan bu günə qədər heç bir neqativ hal yaşanmayıb. Gələn qonaqlara da hostelin şərtlərini, qaydalarını izah edirik. Məsələn, gördüyünüz kimi, divarlarda hostelə spirtli içki gətirilməsinin qadağan olunduğu, "Sakit, yatan ola bilər" kimi elanlar vurulub".

Sonda yenidən hostelin qəbul otağına enirik. Menecerin sözlərinə görə hostelin bu hissəsi çox məşhurdur: "Çünki axşamlar bura gələnlər bir yerə yığılır. Kimisi kompyüterdə iş görür, kimisi televizora baxır, kimisi isə söhbətləşir və sairə. Yeni istirahət edir".

Söhbətimizin bu yerində almaniyalı qonaq bizə yaxınlaşıb salamlaşır. Onun da təəssüratlarını almağa çalışdıq. Turistin dediyinə görə, hələ ötən gün Bakıya gəlib və bu hostelə müraciət edib: "Mən turistəm və ölkələri gəzirəm. Bakıya gəlməmişdən öncə Qazaxıstanda idim. Bakı ilə bağlı ilk təəssüratlarım çox yaxşıdır. Tezliklə şəhəri gəzib, maraqlı yerlər, abidələr ilə tanış olmaq istəyirəm. Bu hosteli də çox bəyəndim. Əsas odur ki, insanları çox dostcanlıdır, məni də çox gözəl qarşıladılar. Axşam gəlib burada futbol maçının davamını izlədim. Biz sözlə, hər şeyi çox bəyəndim".

**❑ Xalidə GƏRAY,**
**Fotolar və video Elçin Əkbərovundur**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 119 (7289) 3 iyun 2019

# Əmlak bazarında son durum - lüks evlər ucuzlaşır

## İqtisadçı: "Azkvadratlı evlərə tələbat daha da artacaq"

**Havalar isindikcə adətən daşınmaz əmlak bazarında müəyyən canlanma baş verir.**

Xüsusilə Bakı ətrafı ərazilərdə fərdi evlərin satışı, tikintisi sürətlənir. Bəs hazırda əmlak bazarında qiymətlər necədir?

"Yeni Müsavat"ın əməkdaşı Bakıda əmlak alqı-satqısının aparıldığı bir neçə ofisdə və "Maklerlər bağı" kimi tanınan ərazidə olub.

Əmlak alqı-satqısı ilə məşğul olan şəxslərlə söhbətimiz zamanı öyrəndik ki, hazırda yeni tikililərin satışında bir o qədər də artım nəzərə çarpmır. Ev almaq istəyənlər daha çox köhnə tikililərə üstünlük verirlər. Səbəb isə qiymətlər arasındakı fərqdir. Ümumilikdə maklerlərin sözlərinə görə, evlərin qiymətində ciddi artım müşahidə edilmir. Tələbat isə daha çox 1 otaqlı mənzillərədir.

Hazırda Bakının mərkəzindən kənar ərazilərdə satılan yeni tikilmiş binada 1 otaqlı, 40-45 kvadratlıq mənzilin qiyməti 45-65 min manat arasında dəyişir. Şəhərin mərkəzinə yaxın, metro stansiyalarından uzaq olmayan ərazilərdə isə köhnə binada 1 otaqlı, 30-37 kvadratmetr sahəsi olan mənzil 50-75 min manata satılır. Qiymətlər arasındakı fərq, mənzilin yerləşmə yerinə görə dəyişir. Maklerlər bildirdilər ki, mərkəzdə olan evin təmiri bir o qədər də önəm daşımır. Əsas qiymətə təsir edən faktor yerləşdiyi ərazinin hansı kateqoriyaya aid olmasıdır. Söylədilər ki, mərkəzi küçələrdə yerləşən mənzillərin qiyməti devalvasiyadan əvvəlki dövrlə müqayisədə xeyli ucuzlaşıb. Məsələn, Nizami küçəsində 32 kvadratmetr sahəsi olan mənzil, 74 min manata satılır. Həmin ərazidə mənzilin 1 kvadratmetrinin qiyməti 2000 manatdan başlayır.

"Maklerlər bağı"nda isə vəziyyət o qədər də ürəkaçan deyil. Maklerlər ağacın kölgəsində oturub, siqaret çəkir, mürgüləyirdilər. Onlardan bəzilərini yuxudan oyadıb, söhbət edə bildik. Alqı-satqı ilə məşğul olanların sözlərinə görə, bazar demək olar ki, tamamilə durğundur. Kirayə mənzil bazarında da durğunluq yaşanır. Səbuhi adlı makler söylədi ki, hazırda kirayə mənzil bazarında qiymətlər bir qədər ucuzlaşıb: "Hər il bu vaxtı, kirayə mənzil bazarında ucuzlaşma olur. Çünki tələbələr, işləmək üçün Bakıya gələnlərin bir qismi rayona dönürlər. Onların əksəriyyəti evləri təhvil vermirlər. Lakin artıq bir ənənə halını alıb ki, bu mövsümdə evlər ucuzlaşır. Hazırda ev axtaranlar Bakının söküntü gedən ərazilərindən çıxarılan insanlardır. Daha çox günlük ev istəyənlər olur ki, ev sahibləri də mənzillərini günlük vermirlər. Hazırda Bakının "Neftçilər", "Qara Qarayev" metrosunun yaxınlığında təmirindən, əşyalarından asılı olaraq 45-50 kvadratlıq evi 250-270 manata kirayə verirlər. 2-3 otaqlı mənzillər şəraitindən asılı olaraq 300-450 manata kirayə verilir. Evini kirayə verənlərin əsas tələbi bu olur ki, kirayə götürən ailəli olsun, azyaşlı uşaq olmasın. Bir də qızlara ev verirlər. İki-üç oğlan gəlsin ki, biz kirayə mənzil axtarırıq, onların çoxuna "yoxdur" cavabı veririk. Çünki bilirik ki, ev sahibi razılaşmayacaq".













Maklerlər bildirdilər ki, yay aylarında dəniz kənarında yerləşən Bakı kəndlərində həm kirayə, həm də satış qiymətləri bahalaşır.

"Yeni Müsavat"a danışan iqtisadçı Natiq Cəfərli bildirdi ki, ötən illərlə müqayisədə bazarda müəyyən canlanma var: "Lüks seqmentdə qiymətlər xeyli dərəcədə düşüb. Yəni bahalı mənzil bazarında qiymətlər ucuzlaşıb. Hazırda bu ucuzlaşma prosesi dayanıb. Devalvasiyadan öncəki dövrlə hazırkı qiymətləri müqayisə edərsək, bir neçə dəfə ucuzlaşma olduğunu görərik. Bakıda hazırda 1-2 otaqlı, ucuz mənzillərə tələbat xeyli dərəcədə artıb. Bu, həm də şəhərdəki söküntü işləri ilə əlaqədardır. Aparılan söküntülərin nəticəsində bazarda yeni alıcı kütləsi yaranır. Eyni zamanda sosial mənzil layihəsi, ipoteka verilişində sürətin artması da bazara təsir göstərən faktdır. 2016 və 2017-ci ilin ortalarına qədər ipoteka kreditlərinin verilməsində demək olar ki, durğunluq yaşanırdı. 2017-ci ilin sonunda bir qədər canlanma başladı və 2018-ci il boyu bu, davam etdi. 2019-cu ildə də müəyyən qədər bu tendensiyanın davamlı olduğunu görürük. Nəticədə 1-2 otaqlı mənzillərin qiymətində cüzi artımlar baş verir. Tələbat olduğu üçün bu, belədir. Daha bahalı mənzil seqmentində isə həm tələbat azalıb, həm də qiymətlər aşağı düşüb. Bunun da səbəbləri əslində çoxdur. Devalvasiyaya qədər mənzil bazarında anormal qiymət formalaşırdı. Bakıda elə evlər var idi ki, Avropanın çox tanınmış şəhərlərindən belə baha satılırdı. İndi isə bu məsələdə normallaşma prosesini görürük. Düşünürəm ki, bu proses davam edəcək. Lüks evlərin qiymətlərinin əvvəlki kimi yüksələcəyi mümkün deyil. Kiçik mənzillərə tələbat isə getdikcə artacaq".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir.**

# Rus şirkətində qalmaqal: qadınlara mini ətək geyinmələri üçün pul təklif olunub

**Rusiyada bir şirkətdə qadın işçilərin işə mini ətəkdə gəlmələri və fotolarını çəkib rəhbərliyə təqdim etmələri ilə bağlı təklif qalmaqal yaradıb.**

Şirkətin bu təklifi cəmiyyət tərəfindən tənqid atəşinə tutulub. Şirkət bu təklifi yerinə yetirən qadınlara qarşılıq olaraq aldıqları maaşdan əlavə pul verəcəyini vəd edib.

Şirkət bu təklifi "feministlik marafonu" adı altında başlatdığı bir kampaniya çərçivəsində verib. Kampaniya iyun ayının 30-na qədər davam edəcək. Bu kampaniyanı təşkil edən şirkətin adı "Tatprof"dur. Şirkət əsasən alüminium istehsalı ilə məşğuldur.

Kampaniyanın şərtlərinə görə, dizindən 5 sm yuxarı və ya daha çox qısa geyinə bilən qadın işçilərə 1 saat üçün 100 rubl (2 manat 50 qəpik) veriləcək. Pulu əldə etmək üçün qadınların fotolarını çəkib rəhbərliyə təqdim etmələri xüsusi şərtlərdən biridir. Şirkətdən verilən açıqlamaya görə, hazırda kampaniyaya 60 qadın qatılıb.



Lakin bu açıqlama Rusiyada sosial şəbəkə istifadəçilərini sakitləşdirməyib. Onlar bu məsələyə etiraza davam edirlər. Bu fikrin şirkətin baş icraçı direktoru Sergey Raçkov tərəfindən önə sürüldüyü də iddia olunur. Onu da qeyd edək ki, "Tatprof" şirkəti 2014-cü ildə Soçi Qış Olimpiya Oyunları və 2018-ci ildə FİFA Dünya Kuboku üçün avadanlıq təşkil edən şirkətlərdən biri olub.

❑ **Turan ORUC,**
**Musavat.com**



# Samuxda faciə: tələbə qız özünü asdı

**Samuxda tələbə qız intihar edib. "Report"un məlumatına görə, hadisə rayonun Eldar kəndində qeydə alınıb. Kənd sakini, 2000-ci il təvəllüdlü Bəsti Yasin qızı Allahverdiyeva özünü yaşadığı evin çardağından asaraq intihar edib. Onun 2-ci kurs tələbəsi olduğu bildirilir. Meyit müayinə üçün tibbi ekspertizaya aparılıb.**

Tələbə qızın hansı səbəbdən intihar etdiyi hələlik məlum deyil. Faktla bağlı araşdırma aparılır.

Yeni MÜSAVAT
N 119 (7289) 3 iyun 2019



# Müxtəlif ölkələrdə içki qadağaları

## Hər il dünyada minlərlə insan bu vərdişin badına gedir...

**Belçika federal polisində 6 ildir tətbiq olunan spirtli içki qadağası "işçilərin sosial uyğunluğuna zərər verdiyi üçün" qismən ləğv edilib. "Yeni Müsavat" xəbər verir ki, qadağanın yumşaldılması ilə polislər artıq qutlama və özəl günlərdə yenidən pivə, eləcə də xəfif içkilər içə biləcəklər.**

Spirtli içki qadağası 2012-ci ildə Belçika Federal Polisinin eks-rəhbəri Ketrin De Bolle tərəfindən tətbiq olunmuşdu. İş yerində spirtli içkidən istifadəyə sərt müxalifəti ilə tanınan De Bolle yasaq qərarına əsaslandırma olaraq, "polislər arasında qayğı yaradacaq həcmdə alkoqoldan istifadəni" önə çəkmişdi. Keçmiş polis rəisi "polisin neqativ imicini dəyişdirmə" planı çərçivəsində spirtli içki qadağası tətbiq etmişdi.

"Yeni Müsavat" bu xəbərin izi ilə dünyanın hansı ölkələrində spirtli içkiyə qadağa olub-olmamasını araşdırıb.

2017-ci ildə Antalyanın turizm bölgələrində ictimaiyyət üçün açıq məkanlarda spirtli içkiyə qadağa qoyulub. Bu barədə Antalyanın polis orqanlarından yazılı məlumat göndərilib. Qərarın alınmasına səbəb əhalinin təhlükəsizliyinin təmin olunması üçün önləyici tədbirlərin görülməsidir. Qadağanı pozanlar 100 lirə cərimə olunacaq.

Bir neçə il öncə yeni ildə Yeni Zelandiya sahillərində içki içməyə qadağa tətbiq edilib. Buna bəziləri yaradıcı yanaşıb. Coromandel yarımadasının Tairua qəsəbəsində yaşayanlar sahildən daşıdıqları qumla dənizin ortasında bir ada düzəldib. Adaya bir piknik masası və içkilər üçün buz dolu bir vedrə yerləşdirməyi bacaran qrup, Yeni ilə burada içərək girib.

**Qadağalar pozulmaq və yüngülləşdirilmək üçündür**

2018-ci ilin oktyabrında Minsk Şəhər İcra Hakimiyyəti oktyabrın 1-dən etibarən spirtli içki satışının saat 23:00-dan 07:00-dək satılmasını qadağan edən qərarı ləğv edib. Qərarın iki il müddətində qüvvədə qalması gözlənilsə də, Belarus prezidenti Aleksandr Lukaşenko bu qadağanın ləğvi ilə bağlı sərəncam imzalayıb. O hesab edib ki, qadağalar vasitəsilə alkoqolizmlə mübarizə aparmaq olmaz, bu, qara bazarın və kriminal sahənin, eləcə də, qaçaqmalçılıq məhsullarının artması ilə nəticələnə bilər.

2012-ci ildə Çexiya hakimiyyəti spirtli içkilərə qoyulmuş qadağanı yüngülləşdirib. Qərara əsasən, keyfiyyət nişanı olan sərt içkilərin satışına icazə verilib. Qalan sərt içkilərin satışı isə qadağandır.

Qeyd edək ki, həmin ərəfədə Çexiyada tərkibində metil spirti olan alkoqollu içkilərdən 26 adam ölüb, onlarla adam kor olub. Bu cür içkilərin istehsalı ilə məşğul olan 2 əsas şübhəlinin həbs olunduğu bildirilir.

2015-ci ildə Fransanın şimalında axşam saat 20:00-dan sonra spirtli içkilərin satışı və ictimai yerlərdə istehlakı qadağan olunub. Fransanın Şimal Bölgəsi İcra Hakimiyyəti qadağa ilə bağlı açıqlama verib. "Şiddət ehtiva edən aksiyaların keçirilməsinə səbəb olduğu üçün axşam saat 20:00-dən səhər saat 08:00-ə kimi, içki satışı və ictimai yerlərdə istehlakı qadağan olunmuşdur. Qadağaya riayət edilmədiyi təqdirdə 150 avro pul cəriməsi tətbiq olunacaqdır".

2016-cı ildə ABŞ donanması Yaponiyadakı hərbçilərinə spirtli içkidən istifadə etməyi qadağan edib. Buna səbəb olaraq isə Yaponiyadakı hərbçilərdən birinin spirtli içki qəbul etdikdən sonra avtomobil idarə etməsi və saxlanılması göstərilib. Bundan əlavə, hərbçilərin övladlarını məktəbdən götürmək və ev ehtiyaclarını ödəmə şərtlərindən başqa hərbi bazalardan çıxışlarına da qadağalar tətbiq olunub. Faktı ABŞ-ın Yaponiyadakı donanmasının komandanı Metyu Karter də təsdiqləyib.

2017-ci ildə Şimali Koreya lideri Kim Çen İn ölkədə spirtli içki və musiqinin olduğu bütün tədbirlərə qadağa qoyub. Təzyiqin artdığı ölkədə daha öncə pivə festivalı qadağan edilmişdi. Qadağaları nəzərdə tutan qanunların ABŞ tərəfindən tətbiq edilən yeni iqtisadi sanksiyalar qarşısında xalqı nəzarətdə saxlamaq məqsədi daşıdığı bildirilir.

2013-cü ildə Türkiyə parlamentində spirtli içkinin satılmasını və reklam olunmasını məhdudlaşdıran qalmaqallı qanun layihəsi qəbul olunub. Qanun 22:00 və 06:00 saatlar arasında spirtli içkinin satışını yasaqlayır və onu istehsal edənlərin tədbirlərə sponsorluq etməsini qadağan edir.

Qanunun digər hissələri:

spirtli içki satışı məscidlərə və məktəblərə 100 metrdən yaxında satıla bilməz;

televiziyada spirtli içki tutqun göstəriləcək;

sərxoş halda maşın sürənlərə qarşı cəzalar daha sərt olacaq. Qanda spirt səviyyəsi 0.1%-dən yuxarı olan sürücülər iki ilədək həbs olunacaq;

bütün spirtli içki butulkalarının üzərində spirtli içkinin zərərli olması barədə xəbərdarlıq yazılmalı olacaq;

Prezident Recep Tayyip Erdoğan bu yaxınlarda demişdi ki, türklərin "milli içkisi" ayrandır.

AKP siyasətçisi, plan və maliyyə Komissiyasının sədri Luftu Elva qanunu müdafiə edib. O deyir ki, Skandinaviya ölkələrində oxşar məhdudiyyətlər var. Amma əsas müxalifət partiyası CHP-dən olan Musa Cam deyib: "Heç kimi içməyə və ya içməməyə məcbur etmək olmaz. Bu, dini və ideoloji vadaretmədir".

Kürd parlament üzvü Hasip Kaplan isə qanunun turizmə təsiri barədə xəbərdarlıq edib.

İsveçrədə 18 yaşından kiçik gənclərə spirtli içki satılmır. Orada bu qadağaların nə dərəcədə həyata keçirildiyini yoxlamaq üçün bir sistem inkişaf etdirilib. Xüsusi olaraq seçilmiş 18 yaşından kiçik gənclər spirtli içki almağa çalışıblar və bu gənclərə içki satan mağaza sahibləri cəzalandırılıb, cərimə ödədilib və bundan sonra onların spirtli içki satması qadağan edilib.

Avropadakı bir çox ölkədə spirtli içki satışı universitetlərin yataqxanası və məktəblərdə qadağandır. Bununla yanaşı, məktəblərin yaxınlığında yerləşən market, kafe və restoranlarda da spirtli içki satışına icazə verilmir.

Keçək ayrı-ayrı ölkələrdəki sistemlərə. Məsələn, Fransanın Strasburq şəhərində saat 21.00-dən saat 05.00-ə qədər küçələrdə spirtli içki içmək qadağandır. Bu, bələdiyyə məclisinin 2012-ci ildəki məlum qərarından sonra belədir. Bundan başqa, Eyfel qülləsinin Champs-de-Mars sahəsində və Saint-Martin kanalı ətrafında spirtli içkidən istifadə 2011-ci ildən bəri qadağandır. Bununla yanaşı, Dijon və Toulouse, Langres və Quimper şəhərlərində gecə spirtli içkidən istifadə də qadağan edilib. Qadağa saat 15.00 ilə saat 03.00 arasında tətbiq edilir. Alkoqollu içkilərdən xəstəxana yaxınlığında, məktəb, sənaye sahələrində, qocalar evində istifadə qadağan edilib.

**Ən sərt tədbirlər Rusiyada**

Adama elə gəlir ki, şaxtanın və milli xüsusiyyələrin təsiri nəticəsində ruslar səhər-axşam içki içirlər. Amma bu ölkədə spirtli içkidən zəhərlənərək ölənlərin sayı ildə 40 minə yaxındır. Məhz bu statistika açıqlanandan və spirtli içkiyə başlama yaşı 14-ə çatandan sonra ölkədə sərt tədbirlər görülməyə başlanıb. Saat 22.00-dən səhər saat 07.00-yə qədər marketlərdə içki satışı yasaqlandı və həmin müddətdə ictimaiyyətə açıq yerlərdə içkidən istifadəyə qadağa qoyulub. Rusiyada sərxoş vəziyyətdə maşın sürənləri 2 ilə qədər həbs cəzası gözləyir ki, bunu da 15 ilə qədər artırmağı düşünürlər.

Finlandiyaya keçək. Burada 18.00-9.00 saatları arası spirtli içki satılmır. Cümə günləri 20.00-a qədər satış mümkündür. Bazar günləri isə finlə heç yerdən alkoqollu içki ala bilmirlər.

Tədqiqatçılar 789 kanadalı tələbədən müsahibə götürərək onların ötən ay nə qədər spirtli içki qəbul etdiyini və bundan sonra "paxmel"in necə ağır keçdiyini soruşublar. Aşkar olunub ki, sərxoşluqdan sonrakı süstlükdən əziyyət çəkmədiyini deyənlər əslində az içmiş olanlardı. Sərxoşluğun ertəsi günü qanında 0,2%-dən çox spirt konsentrasiyası tapılan şəxslər bu fenomendən yaxa qurtara bilmirlər.

Utrext Universitetinin doktoru Yoris Forsterə görə isə səbəb sadədir: "Nə qədər çox içsəniz, ertəsi gün "paxmel" olmaq ehtimalınız bir o qədər böyük olacaq".

"Su sizin susuzluğunuzu yatırmağa və ağızda quruluq hissindən qurtulmağa kömək edə bilər, lakin baş ağrısı, ürək bulanması və özünü pis hiss etmək kimi hisslərdən qurtulmağa kömək edə bilməz", - o əlavə edib. O, həmçinin qeyd edib ki, hər bir şəxsin səhər başına gələ biləcək süstlük vəziyyətinin səbəbi spirtin miqdarıdır ki, bu da hər bir insan üçün individual olaraq dəyişir.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 119 (7289) 3 iyun 2019



## Bu nənə 3 il türmədə yatacaq - nəvəsini qorxutduğu üçün

**Oklaxoma Sitidə yaşayan qadın 7 yaşlı nəvəsini cadugər geyimində qorxutduğu üçün 3 il müddətinə azadlıqdan məhrum olunub. Bu barədə lenta.ru saytı xəbər verib.**

51 yaşlı Jeneva Robinson fevral ayında uşağa qarşı qəddar münasibətdə beş epizod üzrə özünü təqsirli bilib. O, boynuna alıb ki, cadugər geyimini geyinərək yuxuda olan nəvəsinin boynunu cırmaqlayıb, onu əllərindən və üzündən vurub. Prokuror bildirib ki, qadının bu hərəkəti ömür boyu uşağın xatirələrində travma olaraq yer alacaq. Məhkəmədə qadının hərəkətərinə dair 3 dəqiqəlik videomaterial da nümayiş etdirilib. Bu çəkilişi qadın özü mobil telefonuna çəkib. Müdafiə tərəfi deyib ki, ittiham olunan şəxsi bu hərəkətlərə uşağın nadincliyi vadar edib: "Uşağı nəzarətdə saxlamaqda çətinlik çəkirdim. Amma etiraf edirəm ki, bir az uzağa getmişəm".

Qadın, eyni zamanda, bildirib ki, şizofreniyadan və əsəb pozğunluğundan müalicə alır. İttiham olunan şəxsin sevgilisi Coşua Qreyndcer də özünü bu qəddarlıq epizodlarından biri üzrə təqsirli bilib. Onu da 3 il müddətinə azadlıqdan məhrum etmə cəzası gözləyir.

# Fermerdən ilginc etiraz: yekə plakata "Help" yazdı

**Fransalı fermer tarlasının ortasında, üzərində iri hərflərlə "Help" ("Kömək") sözü yazılmış plakat yerləşdirib. O, bununla Fransada kənd təsərrüfatı sahəsindəki kasıb duruma diqqət çəkmək istəyib. Bu barədə "The Local" nəşri məlumat verib. 63 yaşlı Jak Forten Tur şəhərindən uzaq olmayan yerdə, öz fermasında eni 100, hündürlüyü 48 metr olan bir plakatın üzərində bu sözü yazıb. Hərflər hətta təyyarədən belə aydın görünür.**



Forten deyib ki, bu yazı əslidə kollektiv kasıbçılığı ifadə edən bir siqnaldır və bütün fermerlərin adından nəzərdə tutulub. Onun sözlərinə görə, hər gün işlədiyin halda ayda cəmi 350 avroya yaşamaq anormallıqdır. Fermer həmçinin vurğulayıb ki, hər iki fermerdən biri bu məbləğdən az alır və bəziləri isə yaşaya bilmir, ya da intihar edirlər. Forten istəyir ki, problemə prezident seçkilərində iştirak edəcək siyasətçilər diqqət versinlər: "Mən ümid edirəm ki, onlar kor deyillər və bu xəbəri oxuyub reaksiya verəcəklər".

# Xoruldama psixi pozğunluğa yol aça bilər



**Xoruldayan insanlar yuxuda dincələ bilmədikləri üçün nəqliyyatda diqqətləri dağılır və bu da yol qəzalarına səbəb olur. Atatürk Universiteti Tibb Fakültəsi qulaq-burun-boğaz fundamental elm sahəsi üzrə tədris üzvü, dr. Özgür Yörükün fikrincə, xoruldamanı gözardı etmək olmaz, çünki xoruldama bir çox ailə faciələrinin baş verməsinin səbəblərindən biridir. Xoruldamanın ciddi fikir verilməsi vacib olan bir narahatlıq olduğunu vurğulayan Yörük bunun yol qəzalarına, diqqət pozğunluqlarına, şəxsiyyət pozğunluqlarına və hətta psixi pozğunluqlara da yol aça biləcəyini qeyd edib.**

Xoruladayan və nəfəsi kəsilən insanların daha çox yuxuya meylli olduğuna diqqət çəkən Yörük bu barədə fikirlərini açıqlayıb: "Xoruldayan insan yuxusunu ala bilmir, yuxusuz yola çıxdıqda da diqqətiniz dağılmış halda avtomobil idarə edirsiniz. Yolda yuxulamayın səbəbləri ya hər hansı problemin olması, ya da xoruldadığı üçün nəfəsinin kəsilməsinə görə yuxusuz qalması ola bilər. Yuxulamaq bədənin nəfəs alması, dincəlməsi deməkdir. Sürücü isə xoruldadığı üçün dincələ bilmir. Bu halda bədənin də müqaviməti azalır və sükan arxasında özünü itirir, yol qəzalarına səbəb olur".

Xoruldama, eyni zamanda, kökəlməyə də səbəb olur. Xoruldama xəstəliyi artıq çəkili insanlarda daha çox müşahidə olunur. Xoruldadıqca endrogen kortizon deyilən bir hormon ifraz olunur. Xəstə xoruldadıqca nəfəs kəsilmələri baş verdiyi və daha çox stressə girdiyi üçün daha çox kortizon ifraz olunur və xəstə kökəlir. Adətən xoruldayan xəstələrə arıqlamaları məsləhət görülür.




**QOÇ - Nə qədər çətin olsa da, bu təqvimi təmkinlə başa vurmalısınız. Əks təqdirdə qarşıdakı ongünlük üçün nəzərdə tutduğunuz mühüm planlarınızın reallaşması xeyli çətinləşə bilər.**

**BUĞA - İxtiyarınızda olan bu gündə işləriniz çox olacaq. Bu səbəbdən də ikitərəfli əməkdaşlığa başlamağa dəyər. Əmin olun ki, bu təqvimdə əziyyətlərinizin bəhrəsini görəcəksiniz.**

**ƏKİZLƏR - Bütün gücünüzü özünüzü tanıtmağa yönəldin. Ətrafınızda çoxu sizi olduğunuz kimi tanımır. Gecikməmək üçün indidən hərəkətə keçin. Riskdən, tərəddüddən uzaq olun. Çünki zaman xeyrinizədir**

**XƏRÇƏNG - Maraqlı insanlarla rastlaşacağınıza inana bilərsiniz. Ola bilsin ki, həmin şəxslər perspektivlərinizin reallaşmasına yardımçı olsun. Ünsiyyətdə acıdil və qərəzli olmayın.**

**ŞİR - Kifayət qədər sürprizli vaxtdır. Ağlınıza gəlməyən istiqamətlərdən ürəyinizcə olan xəbər və ya təklif ala bilərsiniz. Fəaliyyətlə əlaqəli olmasa, heç bir uzaq səfərə çıxmayın.**

**QIZ - Maliyyə problemləriniz qabarmaqdadır. Lakin narahat olmağa dəyməz. Çünki qarşınızda duran günlərdə bu çətinliyiniz aradan qalxacaq. Nahardan sonra uzaq səfərə çıxmaq uğurludur.**

**TƏRƏZİ - Təzadlı ərəfəyə təsadüf edən bu günü bir qədər mübahisəli şəkildə keçirəcəyiniz gözlənilir. Odur ki, özünüzü ələ almalı, insanlarla ünsiyyətinizi kifayət qədər məhdudlaşdırmalısınız.**

**ƏQRƏB - Günün ilk yarısında enerji yığmaq üçün yaxşıca istirahət edin. Çünki saat 13-dən sonra gözlənilmədən aktivləşəcəksiniz. Aldığınız bütün təkliflərə razılıq verin, büdcənizi dağıtmayın.**

**OXATAN - Yaxşı olar ki, bu təqvimi bütünlüklə istirahətə həsr edəsiniz. Onsuz da fəaliyyət və pul qazanmaq istiqamətində heç bir uğur gözlənilmir. Buna baxmayaraq, rəsmi dəvətləri qəbul edin.**

**OĞLAQ - Ürəyinizin səsinə qulaq asın. İmkan verməyin ki, ideyalarınızın istiqamətini kimsə dəyişsin. İnanın ki, belə olarsa bütün cəhdləriniz reallaşacaq. Əyləncələrə aludə olmayın.**

**SUTÖKƏN - Doğmalarınızla münasibətdə bir qədər mübahisə ola bilər. Buna görə də neytral olmalısınız, hətta səhv qarşı tərəfdə olsa belə. Saat 16-19 aralığında hər mənada ehtiyatlı olun.**

**BALIQLAR - O qədər də uğurlu vaxt deyil. Bir tərəfdən səhhətinizdə problemlər, digər tərəfdənsə başa düşülməməyiniz ovqatınızı aşağı sala bilər. Səyyar fəaliyyətdən yayının.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qarşılıqsız sevgi... ürək xəstəliyi yaradır



**Qarşılıqsız sevgi ilə birgə yaşanan kədər həmin insanlarda gələcəkdə ürək çatışmazlığı kimi ciddi problemlərə yol aça bilər. İngilislər tərəfindən bu xəstəlik "Broken heart" ("Qırıq qəlb") adlanır. İnsan stress, kədər və həyatında mühüm bir dəyişiklik yaşadığında ürəyində bəzi dəyişikliklər olur. Bununla yanaşı insanda göbələk infeksiyasına bənzəyən əlamətlər, halsızlıq, yüngül qızdırma, yatağa bağlı olmaq kimi problemlər ortaya çıxır.**

"Qırıq qəlb" xəstəliyinin daha çox həssas insanlarda rastlandığını bildirən həkimlər, bu xəstəliyin əsl səbəbinin tam məlum olmadığını deyiblər. Əsasən gənc insanlarda rast gəlinir və xoşagəlməz, üzücü nəticələrə səbəb olur. Bu cür xəstələr ilk olaraq döş qəfəsində ağrı, halsızlıq, ayaqlarda şişmə kimi əlamətlərdən şikayət edərlər.

"Qırıq qəlb" xəstəliyinin tam müalicəsi yoxdur. Adi bir dərman müalicəsi ilə bu xəstənin şikayətlərini azaltmaq olar. Ancaq ən əsas müalicə insanı üzən şeyi ortadan qaldırması, xəstənin öz bədəninə sağalması üçün ümid verməsidir. Ya sevgisinə qovuşmalıdır, ya da qarşılıqlı sevgi yaşamalıdır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU
Lisenziya N: B 114
SAYI: 3.190